RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 91 (10111) 23 may 2026-cı il ŞƏNBƏ | AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI | QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# 176 ölkə, 58 mindən çox iştirakçı

## İLHAM ƏLİYEVİN LİDERLİYİNİ DÜNYA WUF13-LƏ BİR DAHA TƏSDİQLƏDİ

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə WUF tarixində ilk dəfə keçirilən liderlər bəyanatı sessiyası forumun ən mühüm yeniliklərindən biri olub. Sessiyada 27 dövlət və hökumət başçısı, eləcə də beynəlxalq təşkilatların rəhbərləri iştirak edərək, qlobal şəhər gündəliyinə siyasi dəstəyi nümayiş etdiriblər.

Ümumdünya Şəhərsalma Forumunun tarixində ilk dəfə təşkil edilən QHT Forumunda 100-dən çox ölkədən 800-ə yaxın nümayəndə iştirak edib. WUF13 çərçivəsində keçirilən QHT Forumunda qəbul olunan Bakı Bəyannaməsini 82 ölkədən 441 vətəndaş cəmiyyəti nümayəndəsi imzalayıb. Forum çərçivəsində fəaliyyət göstərən QHT Pavilyonunda 59 tədbir keçirilib və bu tədbirlərdə 3 minə yaxın yerli və xarici iştirakçı yer alıb. 1000-dən çox akkreditə olunmuş media nümayəndəsi WUF13-ü geniş şəkildə işıqlandıraraq dayanıqlı urbanizasiya və beynəlxalq əməkdaşlığın əhəmiyyətinin qlobal miqyasda təşviqinə töhfə verib.

Forumun bağlanış mərasimində çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax Ümumdünya Şəhərsalma Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür edib. O bildirib ki, həftə ərzində nümayiş etdirilən müstəsna qonaqpərvərlik, təşkilatçılıq və liderlik WUF13-ü, həqiqətən, qlobal toplantıya çevirib. Rossbax Azərbaycanın dayanıqlılığını, qətiyyətini və yüksəksəviyyəli öhdəliyini xüsusi vurğulayıb: "Azərbaycan dünyaya təkcə qurmaq deyil, həm də yenidən qurmaq və transformasiya etmək bacarığını göstərdi". UN-Habitat rəhbəri vurğulayıb ki, Bakıdan verilən çağırışın bütün dünyaya çatdırılması vacibdir və qlobal şəhər icması əldə olunan bilik, təcrübə və ideyalardan faydalanmalıdır.

6

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



**WUF13**



WORLD URBAN FORUM

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

*Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Şeyx Məhəmməd bin Zayed AL NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

❖ ❖ ❖

Zatı-aliləri cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizi təbrik edirəm.

Bu bayram münasibətilə Azərbaycan xalqına firavanlıq diləyir və ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Dost ölkənizin Müstəqillik Günü münasibətilə Bəhreyn Krallığının xalqı və hökuməti adından, şəxsən öz adımdan Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

Zati-alinizə məmnuniyyətlə ən yüksək ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Həməd bin İsa AL XƏLİFƏ,***
***Bəhreynin Kralı***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Paraqvay xalqı və hökuməti adından, şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan məmnunluğumu bildirirəm.

Bu əlamətdar bayram münasibətilə qardaş Azərbaycan xalqına sülh, rifah və firavanlıq arzulayıram.

Paraqvay Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsini diləyirəm.

*Fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək ehtiramımı və dərin hörmətimi bir daha ifadə edirəm.*

***Santyaqo PENYA,***
***Paraqvay Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzu edirəm.

*Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Şeyx Məhəmməd bin Raşid AL MAKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu ifadə edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

*Zati-alinizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Şeyx Mansur bin Zayed AL NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident Administrasiyasının rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri!

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) adından və şəxsən öz adımdan 28 May Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu əlamətdar gün böyük ölkənizin tarixində və Azərbaycan xalqının yaddaşında özünəməxsus yer tutur.



ICESCO Azərbaycanı özünün ən güclü tərəfdaşları arasında görməkdən şərəf duyur. Zati-alinizin illər ərzində təşkilatımıza göstərdiyi davamlı dəstək və həyata keçirilən konstruktiv əməkdaşlıq bütün islam dünyasında xüsusi rəğbətlə qarşılanır.

Bu bayram münasibətlə Zati-alinizə cansağlığı, tükənməz enerji, Azərbaycan xalqına isə firavanlıq və əldə olunan böyük nailiyyətlərlə hər zaman qürur duymağı arzulayıram.

*Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Səlim bin Məhəmməd ƏL-MALİK,***
***ICESCO-nun Baş direktoru***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə ölkənizin hökumətinə və xalqına təbriklərimi çatdırıram.

Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasında dostluq münasibətləri qarşılıqlı maraqlara uyğun olaraq gələcəkdə də möhkəmlənəcək və inkişaf edəcək.

*Hörmətlə,*

***Kim ÇEN IN,***
***Koreya Xalq Demokratik Respublikasının Dövlət İşlərinin Sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi 28 May Müstəqillik Günü və müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edim.

Azərbaycan xalqının müsəlman aləmində ilk demokratik respublikanı yaratması bütün türk dünyasının fəxridir.

Ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilən 12-ci Zirvə Görüşü ilə başlayan Azərbaycanın sədrliyi dövründə təşkilatımızın nüfuzu qlobal miqyasda daha da artmış, çoxşaxəli əməkdaşlığımız keyfiyyətcə yeni müstəviyə qədəm qoymuşdur.

Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə və dünya arenasında nüfuzunun artırılmasına verdiyiniz töhfələrə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Əminəm ki, Sizin rəhbərliyinizlə yüksələn xətlə inkişaf edən Azərbaycan Respublikası daha da güclənəcək.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə dərin ehtiramımı bildirir, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

İqtisadi Əməkdaşlıq Təşkilatı regional iqtisadi əməkdaşlığın və daha geniş inteqrasiyanın inkişafında Azərbaycanın fəal və konstruktiv roluna böyük əhəmiyyət verir. Təşkilatımızın əsas üzvü kimi Azərbaycan üzv dövlətlər arasında əlaqələrin, xüsusilə ticarət, enerji sahələrində əməkdaşlığın və davamlı inkişafın təşviqinə dəyərli töhfələr verir.

Əminəm ki, kollektiv səylərimiz, ortaq baxışımız, həmçinin Zati-alinizin himayəsi və dəstəyi ilə İqtisadi Əməkdaşlıq Təşkilatı regionda sülh, sabitlik, firavanlıq naminə daha da inkişaf edəcək.

*Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Əsəd MƏCİD XAN,***
***İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar bayram Azərbaycan Respublikasının suverenliyini, dövlətçiliyini möhkəmləndirmək, davamlı inkişafını sürətləndirmək, vətəndaşlarının rifahını daha da yaxşılaşdırmaq istiqamətində görülən mühüm işləri təcəssüm etdirir.

Qoy, bu bayram respublika vətəndaşlarının qəlbini ölkələrinə görə qürur, onun daha xoşbəxt gələcəyinə inam və qazanılan uğurlarla bağlı tükənməz sevinc hissi ilə doldursun!

Sizə möhkəm cansağlığı, firavanlıq və Azərbaycan Respublikasının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Bakıtcan SAQINTAYEV,***
***Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri***

## Lev Qumilyov adına Avrasiya Milli Universitetinin İdarə heyətinin sədri-rektoru cənab Yerlan Sıdıkova

Hörmətli cənab Sıdıkov!

Sizi və rəhbərlik etdiyiniz kollektivi əlamətdar yubiley - Lev Qumilyov adına Avrasiya Milli Universitetinin (AMU) yaranmasının 30 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Yarandığı gündən etibarən AMU şərəfli yol keçərək mühüm uğurlara imza atmış, Qazaxıstanın aparıcı ali təhsil müəssisələrindən biri, regionda mötəbər elm və təhsil mərkəzinə çevrilmişdir.

Professor-müəllim heyətinin peşəkarlığı və tədris prosesinin təşkilinə innovativ yanaşma sayəsində AMU bu gün yüksəkkeyfiyyətli təhsilin simvolu, qlobal əhəmiyyətli təhsil müəssisələrindən biri hesab olunur.Universitetin bir çox məzunları müstəqil Qazaxıstanın inkişafına və rifahına öz töhfələrini verirlər.

22 il ərzində bu şanlı elm ocağının fəxri professoru adını daşıdığım üçün böyük fərəh hissi duyuram.

Əminəm ki, AMU bundan sonra da dünyanın nüfuzlu universitetləri sırasındakı mövqeyini daha da möhkəmləndirəcək,fundamental elmin inkişafı və dövrün tələblərinə cavab verən yüksəkixtisaslı kadrların hazırlanması kimi ali missiyasına sədaqətlə xidmət edəcəkdir.

Bu əlamətdar yubiley günündə Sizə, Universitetin bütün professor-müəllim heyətinə və tələbələrinə möhkəm cansağlığı, tükənməz enerji, fəaliyyətinizdə yeni zirvələr və uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yerin təkinin (qiymətli və əlvan (o cümlədən nəcib) metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 156** **Bakı şəhəri, 21 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 17 mart tarixli 380-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 7 aprel tarixli 639 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 950 (Cild I); 2024, № 3, maddə 306, № 9, maddə 1093) ilə təsdiq edilmiş "Yerin təkinin (qiymətli və əlvan (o cümlədən nəcib) metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı"nın 9-cu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 10-cu abzas əlavə edilsin:

"10. qeyri-filiz faydalı qazıntı yataqlarının öyrənilməsi, kəşfiyyatı, işlənilməsi və idarə olunması məqsədilə yer təki sahələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən birbaşa olaraq paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin istifadəsinə verildikdə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gəmi agenti haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 155** **Bakı şəhəri, 21 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 893 (Cild I); 2024, № 3, maddə 328, № 5 (II kitab), maddə 612; 2025, № 5, maddə 507, № 8, maddə 805) ilə təsdiq edilmiş "Gəmi agenti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 4.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.3. səlahiyyətli şəxsi Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsində normativ hüquqi aktların tələbləri, liman adətləri, dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı xidmətlərə görə tariflər, o cümlədən Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinə uyğun olaraq dəniz nəqliyyatı sahəsində göstərilən xidmətlərə görə haqqın məbləğləri, habelə tarif və xidmət haqları üzrə ödənişlərin həyata keçirilməməsinin hüquqi nəticələri barədə məlumatlandırmaq;".

2. Aşağıdakı məzmunda 4.1.3-1-ci yarımbənd əlavə edilsin:

"4.1.3-1. gəmilərin limana gəlməsi, limanda olması və limandan çıxması barədə məlumatları Agentliyə elektron qaydada təqdim etmək;".

3. 4.1.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.12. səlahiyyətli şəxsin adından maliyyə tapşırıqları üzrə ödənişləri (o cümlədən bu Əsasnamənin 4.1.3-cü yarımbəndində qeyd olunmuş tarif və xidmət haqları üzrə ödənişləri) icra etmək və bununla bağlı sənədləri səlahiyyətli şəxsə təqdim etmək;".

4. 4.1.15-ci yarımbəndə "Agentliyə" sözündən sonra "elektron qaydada" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 159** **Bakı şəhəri, 21 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 466 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Büdcə ili ərzində vahid xəzinə hesabının sərbəst qalığının idarəetməyə verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 aprel tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 389 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Baş nazir Əli Əsədov Aşqabadda Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb

Aşqabad şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 22-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Türkmənistanın dövlət başçısına çatdırıb.

Sərdar Berdiməhəmmədov Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Görüş zamanı Azərbaycan ilə Türkmənistan arasında qarşılıqlı etimada əsaslanan siyasi dialoqun dinamik inkişaf etdiyi vurğulanıb, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlər üzrə genişləndirilməsi imkanları müzakirə olunub.

# Baş nazir Əli Əsədov Aşqabadda MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edib



Mayın 22-də Türkmənistanın paytaxtı Aşqabadda Müstəqil Dövlətlər Birliyi (MDB) Hökumət Başçıları Şurasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycanın Baş naziri Əli Əsədov iştirak edib.

Baş nazir məhdud tərkibdə keçirilən iclasda çıxışı zamanı humanitar əməkdaşlığın əhəmiyyətini vurğulayaraq bildirib ki, bu sahə Birliyə üzv dövlətlər arasında qarşılıqlı fəaliyyətin əsas istiqamətlərindən biri olaraq qalır. Qeyd olunub ki, məhz humanitar layihələr və təşəbbüslər xalqlar arasında qarşılıqlı anlaşmanın, ənənəvi dostluq münasibətlərinin və etimadın möhkəmləndirilməsi üçün mühüm potensiala malikdir.

Bu kontekstdə Ə.Əsədov 2027-ci ildə Minsk şəhərinin, 2028-ci ildə isə Karaqanda şəhərinin MDB-nin Gənclər Paytaxtı elan olunması ilə bağlı qərarı alqışlayıb. Azərbaycan hökumətinin başçısı həmçinin qeyd edib ki, bu günlərdə Bakıda dayanıqlı inkişaf, urbanizasiya və həyat keyfiyyətinin yüksəldilməsi məsələlərinə həsr olunan ən böyük beynəlxalq platformalardan biri - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) başa çatır. BMT-nin himayəsi altında keçirilən WUF13-ün dünyanın 176 ölkəsindən 58 mindən çox nümayəndəni bir araya gətirdiyi vurğulanıb.

Baş nazirin sözlərinə görə, 13-cü sessiya çərçivəsində qlobal mənzil böhranı, şəhərlərin dayanıqlı inkişafı, iqlim davamlılığı və böhrandan sonrakı bərpa məsələləri də daxil olmaqla aktual qlobal çağırışlar müzakirə edilib.

Ə.Əsədov Azərbaycanın MDB ölkələri ilə iqtisadi-ticari əməkdaşlığının inkişafına xüsusi diqqət yetirib. Bildirilib ki, bu sahədə münasibətlər ardıcıl şəkildə möhkəmlənir və müsbət dinamika nümayiş etdirir. Xüsusilə qeyd olunub ki, 2025-ci ildə Azərbaycan ilə MDB-yə üzv dövlətlər arasında ticarət dövriyyəsinin həcmi 10 faizdən çox artıb.

Baş nazir eyni zamanda qarşılıqlı ticarətin, investisiya əməkdaşlığının daha da genişləndirilməsi və müxtəlif sahələrdə birgə layihələrin həyata keçirilməsi üçün böyük potensialın mövcud olduğunu da vurğulayıb.

Ə.Əsədov Azərbaycanın sosial-iqtisadi inkişaf prioritetlərindən danışarkən qeyd edib ki, hazırda ölkədə sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika sahəsi və iqtisadiyyatın yüksək texnologiyalar sektorları ardıcıl şəkildə inkişaf edir.

"Yaşıl energetika"nın inkişafının prioritet istiqamət olduğu ayrıca vurğulanıb. Baş nazirin sözlərinə görə, ölkədə bərpa olunan enerji mənbələri sahəsində həyata keçirilən irimiqyaslı layihələr təkcə ekoloji dayanıqlığın möhkəmləndirilməsinə deyil, həm də Azərbaycanın investisiya və ixrac potensialının genişlənməsinə xidmət edir.

Ə.Əsədovun sözlərinə görə, Qarabağ bölgəsinin bərpasına xüsusi diqqət yetirilir. Burada "yaşıl enerji" zonalarının yaradılması, müasir infrastruktur həllərinin, innovativ texnologiyaların, həmçinin "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının tətbiqi ilə keyfiyyətli yeni dayanıqlı inkişaf modeli həyata keçirilir.

Baş nazir bildirib ki, artıq bu gün Qarabağ bölgəsi iqtisadi fəallıq, investisiya və dayanıqlı inkişaf üçün mühüm məkana çevrilir.

Çıxış zamanı Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən etibarlı nəqliyyat-logistika qovşağı kimi rolunu ardıcıl şəkildə gücləndirdiyi də qeyd olunub. İrimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı ölkənin tranzit potensialının daha da genişlənməsinə və Avrasiya məkanında logistik bağlantının möhkəmlənməsinə töhfə verir.

Bundan başqa, Ə.Əsədov iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı artımın təmin olunmasına yönəlmiş genişmiqyaslı iqtisadi təşəbbüslərin həyata keçirilməsinin fəallaşdığını qeyd edib. Bununla əlaqədar bildirilib ki, 2025-ci ilin dekabrında texnologiya sektorunun, innovasiyaların və rəqəmsal transformasiyanın sürətlə inkişafını nəzərdə tutan Azərbaycanın 2026-2029-cu illər üzrə Rəqəmsal İqtisadiyyatın İnkişaf Strategiyası təsdiqlənib.

Baş nazir bildirib ki, həyata keçirilən təşəbbüslərin məcmusu qeyri-neft sektorunun dayanıqlı artımı və beynəlxalq iqtisadi əməkdaşlığın genişlənməsi ilə yanaşı, texnologiyalara, infrastrukturun inkişafına və regional inteqrasiyaya əsaslanan yeni iqtisadi modelin formalaşmasına töhfə verir.

Ə.Əsədov çıxışının yekununda vurğulayıb ki, Azərbaycan Respublikası MDB çərçivəsində daim mehriban qonşuluq, qarşılıqlı hörmət və konstruktiv tərəfdaşlıq prinsiplərinə sadiq qalır.

Daha sonra hökumət başçıları iclası geniş tərkibdə davam etdiriblər. İclasın yekununda bir sıra sənədlər imzalanıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova MDB PA-nın 60-cı plenar iclasında çıxış edib




Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri çərivəsində mayın 22-də MDB Parlamentlərarası Assambleyasının (MDB PA) 60-cı plenar iclasında iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda çıxış edən Milli Məclisin Sədri assambleyanın qanunverici orqanlarımız arasında dialoq və əməkdaşlığın inkişafında mühüm rolunu, qarşılıqlı maraq doğuran geniş spektrli məsələlərin müzakirəsi üçün platforma kimi çıxış etdiyini vurğulayıb. Spiker Sahibə Qafarova bu baxımdan, assambleya tərəfindən həm müntəzəm qaydada tədbirlərin, iclasların və seminarların keçirilməsinin, həm də onun yeni uğurlu ideya və təşəbbüslərinin reallaşdırılmasının əhəmiyyətini qeyd edib.

Çıxışında Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası haqqında tədbir iştirakçılarına məlumat verən Milli Məclisin Sədri qeyd edib ki, 17-22 may tarixlərində Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası şəhərlərin davamlı inkişafı və urbanizasiya məsələlərinə həsr olunmuş ən nüfuzlu və qlobal beynəlxalq tədbirlərdən biridir. Bakıda keçirilən 13-cü sessiya BMT-nin Məskunlaşma Proqramı tərəfindən indiyədək təşkil edilmiş ən genişmiqyaslı sessiyadır.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, bu sessiyanın Bakıda keçirilməsi Azərbaycanın icmaları və ölkələri ortaq məqsəd ətrafında birləşdirmək bacarığının qəbul olunmasını təsdiq edir. Azərbaycan Prezidenti İlham Əliyevin forumun açılışında vurğuladığı kimi, "Azərbaycan Avropa ilə Asiya arasında yerləşir və həmişə Şərqlə Qərbin qovuşduğu yer olub və belə də qalır".

Milli Məclisin Sədri bildirib ki, 13-cü sessiya çərçivəsində Parlamentlərarası Assambleyanın "Dağ yaşayış məntəqələrinin davamlı inkişafı" mövzusunda ayrıca tədbiri keçirilib. Assambleyanın bu təşəbbüsünün bir çox Birlik ölkələri üçün xüsusi əhəmiyyət kəsb edən dağ ərazilərinin inkişafına diqqəti yönəltməyə, habelə məzmunlu və konkret təcrübə mübadiləsi aparmağa imkan verdiyi qeyd olunub. Ölkələrimizin parlamentarilərinin bu müzakirələrdə fəal iştirak etməsinin məmnunluq doğurduğu diqqətə çatdırılıb.

Spiker Sahibə Qafarova qeyd edib ki, Parlamentlərarası Assambleya təkcə çoxtərəfli deyil, həm də parlamentlərimizin ikitərəfli əməkdaşlığının inkişafına kömək edən platformadır. O, bir neçə gün əvvəl Özbəkistan Respublikasının Buxara şəhərində təşkil edilmiş İkinci Asiya Qadınlar Forumunda MDB PA-dan olan digər həmkarları ilə birgə iştirakını diqqətə çatdırıb.

Spiker deyib ki, iyun ayında Azərbaycan Respublikasının Milli Məclisi ilə Rusiya Federasiyasının Federal Məclisi arasında əməkdaşlıq üzrə Parlamentlərarası Komissiyanın növbəti 24-cü iclası keçiriləcək. O, eyni zamanda MDB PA-nın humanitar əməkdaşlığı gücləndirməyə yönəlmiş təşəbbüslərinin əhəmiyyətini qeyd edib.

Çıxışında həmçinin MDB PA-nın seçkilərlə bağlı monitorinq fəaliyyətinə toxunan Milli Məclisin Sədri qurumun bu fəaliyyətinin institusional təminatında MDB PA-nın Demokratiyanın, parlamentarizmin inkişafı və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi üzrə Beynəlxalq İnstitutunun rolunu qeyd edib.

Spiker Sahibə Qafarova xatırladıb ki, 8 dekabr 2025-ci il tarixində Milli Məclis və Beynəlxalq İnstitutun Bakı filialının birgə təşkilatçılığı ilə "Heydər Əliyev - suveren Azərbaycanın konstitusionalizminin və parlamentarizminin banisi" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans Azərbaycan Respublikasının Konstitusiyasının 30 illiyinə və Azərbaycan parlamentinin 107 illiyinə həsr olunub. Bu konfrans Birlik ölkələrinin parlamentarilərini, MDB PA Şurası Katibliyinin rəhbərliyini, diplomatik korpusun nümayəndələrini, ali təhsil müəssisələrini və ekspertləri bir araya gətirib.

Bir müddət öncə isə, mayın əvvəlində Bakı filialının inzibati binasında MDB PA-nın Demokratiyanın inkişafının monitorinqi üzrə Beynəlxalq İnstitutunun 20 illiyinə həsr olunmuş "Parlamentarilərin beynəlxalq müşahidədə rolu" mövzusunda "dəyirmi masa" keçirilib.

Çıxışına yekun vuran Milli Məclisin Sədri bildirib ki, MDB PA bu gün də parlamentlər arasında müntəzəm qarşılıqlı fəaliyyətin effektiv platforması rolunu etimadla davam etdirir. Spiker assambleya çərçivəsində əməkdaşlığın müxtəlif istiqamətlərdə daha da genişləndirilməsi və möhkəmləndirilməsi üçün gələcəkdə də birgə səylərin davam etdiriləcəyinə əminliyini ifadə edib.

***"Azərbaycan"***

# Azərbaycan-Belarus əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir

Milli Məclisin Sədri Sahibə Qafarova Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən MDB Parlament Assambleyasının 60-cı plenar iclası çərçivəsində Belarus Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimizin dostluq və qarşılıqlı etimad prinsiplərinə əsaslanan əlaqələrinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi vurğulanıb. Azərbaycanla Belarusun əməkdaşlığının bugünkü yüksək səviyyəyə çatmasında dövlət başçılarının səmimi münasibətlərinin, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və siyasi dialoqun mühüm rol oynadığı qeyd edilib.

Söhbət zamanı tərəflər ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dərinləşməsində qanunvericilik orqanlarının da töhfələrindən bəhs ediblər, parlamentlərarası əməkdaşlığın uğurla davam etdiyini bildiriblər. Spiker Sahibə Qafarova Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədri İqor Sergeyenkonun bir neçə gün öncə Azərbaycana səfəri və tərəflər arasında keçirilmiş görüşü, həmçinin özünün Belarusa, eləcə də Natalya Koçanovanın Bakıya səfərlərini xatırladıb. O, parlament rəhbərlərinin və deputatların səfərlərinin qanunverici orqanlar arasında əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət etdiyini deyib.

Azərbaycan və Belarus parlamentləri ikitərəfli müstəvidə səmərəli fəaliyyət həyata keçirməklə yanaşı, beynəlxalq parlament təşkilatlarında, o cümlədən Parlamentlərarası İttifaq, MDB Parlament Assambleyası, Asiya Parlament Assambleyası kimi təşkilatlarda da fəal əməkdaşlıq edirlər.

Natalya Koçanova ölkələrimizin iqtisadi, ticarət, mədəni və digər istiqamətlər üzrə münasibətlərinin dinamik şəkildə inkişaf etdiyini vurğulayaraq, parlamentlərarası əlaqələrin bu əməkdaşlığın daha da genişlənməsinə töhfə verdiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# "Bakı Fəaliyyətə Çağırış" sənədi

**Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) fəaliyyətə yönəlmiş xarakterindən ilhamlanan "Bakı Fəaliyyətə Çağırış" sənədi kollektiv, birgə hazırlanmış, ədalətli və inklüziv bir prosesin nəticəsidir. Bu sənəd idarəetmənin müxtəlif sektorları və səviyyələri üzrə maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təşkilatları, qadınlar, yaşlılar, uşaqlar və gənclər, yerli xalqlar, mütəxəssislər, akademik dairələr, tədqiqatçılar, yerli və regional hakimiyyət orqanları, əlilliyi olan şəxslər, parlament üzvləri, özəl sektor və mənzil təminatı dəyər zəncirində çalışan digər iştirakçıların müxtəlif töhfələrini özündə ehtiva edir.**

Bu sənəd Ümumdünya Şəhərsalma Forumundan əvvəl hərtərəfli maraqlı tərəflərlə aparılan kompleks məsləhətləşmələrin ilkin prosesi boyunca aylarla davam edən fəaliyyətin nəticəsidir. Biz bu irəliləyişi alqışlayır və ona sevinirik, bunu davamlılığı və hesabatlılığı təmin etmək üçün müntəzəm çoxtərəfli iştirak mexanizmini əsas götürərək əvvəlki və sonrakı məsləhətləşmələrlə birlikdə WUF dövrü ərzində standart təcrübə kimi qəbul olunmasına çağırış edirik.

176 ölkədən 58 mindən çox iştirakçının qatıldığı və bu günə qədər keçirilən ən böyük WUF tədbirinə evsahibliyi etdiyinə görə Azərbaycan hökumətinə səmimi minnətdarlığımızı bildiririk. Tarixdə ilk dəfə olaraq, ev sahibi ölkənin təşəbbüsü ilə 27 dövlət və hökumət başçısı, yüzdən çox nazir, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini və yüksəksəviyyəli bir neçə rəsmi şəxs liderlər sammitində iştirak edib. WUF13-ün yeniliklərinə Bakı Şəhərsalma Mükafatı, Biznes və İnnovasiya Mərkəzi, WUF Akademiyası kampusu və Təcrübə Mərkəzi daxildir.

## PREAMBULA

Qlobal mənzil böhranı kritik həddə çatır. Bu böhran təsadüfi deyil, dərin struktur, sistem və idarəetmə uğursuzluqlarının nəticəsidir. Bu, polikrizis mülkiyyətdən məhrumetmə, müstəmləkəçilik, irqçilik, bərabərsizlik və digər tarixi, cari kontekstlərlə əlaqəli mürəkkəb, bir-biri ilə əlaqəli amillərdən qaynaqlanır.

Dünyada təxminən 3,4 milyard insan adekvat mənzil təminatından məhrumdur.

Ev, sadəcə, dörd divardan ibarət bir bina deyil. Bu, ləyaqət, kimlik və ən əsası isə təhlükəsiz gələcək üçün bir təməldir. Bu, ictimai məkanlar, məktəblər, səhiyyə müəssisələri və s. kimi digər ictimai obyektlərin və xidmətlərlə əlaqəli bir sistemin əsas elementidir. Buna görə də mənzil sosial və ekoloji funksiyasına görə qəbul edilməli və şəhər hüququ, sosial müdafiə və iqtisadi artım üçün daha geniş bir vizyona inteqrasiya olunmuş inkişaf gündəliyinin mərkəzində duran insan hüququ kimi prioritetləşdirilməlidir.

- Bütün dünyada mənzillərin maliyyələşdirilməsi və əmtəələşdirilməsi şəhər bərabərsizliyini və yoxsulluğu dərinləşdirir. Evlər əlçatmaz olur, bu da gentrifikasiya və məkan bərabərsizliyini, evsizliyi artıran qısamüddətli kirayələrin çoxalması ilə daha da çətinləşir;
- Zəif torpaq idarəetməsi və planlaşdırma sistemləri məkan seqreqasiyası, infrastruktur bərabərsizliyi və genişlənmədən qaynaqlanan bir çox şəhər və mənzil problemlərinin mərkəzində dayanır ki, bu da tez-tez bazar spekulyasiyasına və insanların yaşayış yerlərini dəyişməsinə səbəb olur;
- Qlobal və milli öhdəliklərə baxmayaraq, mənzil üçün dövlət maliyyəsi azalır və ənənəvi maliyyə parçalanmış, qısamüddətli və mənzil tikintisinin planlaşdırıldığı, xidmət göstərildiyi, təkmilləşdirildiyi, tikildiyi və idarə edildiyi ərazilərlə zəif əlaqəli olaraq qalır;
- Yerli və regional hökumətlər şəhər transformasiyasının ön sıralarında dayanır, çox vaxt şəhər və mənzil böhranını həll etmək üçün mandata, imkana, yaxud resurslara malik olmurlar;
- Münaqişə, müharibə və urbisid məktəblər, xəstəxanalar, ictimai obyektlər, evlər kimi mülki infrastruktur sahələrinə birbaşa təsir göstərir və insanların tez-tez qaçqın, yaxud məcburi köçkün kimi evsiz qalmasına səbəb olur;
- Şəhər mərkəzləri, meqapolislər və ikinci dərəcəli şəhərlər demoqrafik baxımdan sürətlə dəyişir. Onların əksəriyyəti əlilliyi olan şəxsləri, gəncləri, uşaqları, qadınları, yerli xalqları və yaşlıları dəstəkləyən, onlara qayğı göstərən nəsillərarası mənzil sistemlərinə olan tələbatı ödəmək üçün mübarizə aparır;
- Dünyada məcburi köçürülmələr artaraq birbaşa köçürülməyə və mənzil böhranının daha da ağırlaşmasına səbəb olur. Bir evin sökülməsini görmək yalnız şəxsi əşyaların itirilməsi deyil, həm də uzunmüddətli zehni, emosional və fiziki travma deməkdir;
- Dünyada şəhərlər güclü daşqınlar, şəhərin istilik dalğası və pis hava keyfiyyəti daxil olmaqla iqlim dəyişmələrinin təsirinə məruz qalır. Qeyri-adekvat mənzil şəraitində yaşayan ailələr dəyişən iqlimin qeyri-mütənasib təsirləri ilə üzləşirlər;
- Tarixən qadınlar qayğı yükünü daşıyıblar və bu gün də mənzil, əmlak mülkiyyəti, məşğulluq, əsas xidmətlər, mobillik və digər məsələlərlə bağlı struktur maneələrlə üzləşirlər;
- İqtisadi böhran və buna səbəb olan digər amillər ailələri və fərdləri misli görünməmiş sürətlə evsiz qoyur. Bir çox şəhərlərdə evsizliyə görə cinayət məsuliyyətinə cəlb etməyi seçirlər, ancaq bu problemin həll yolları və alternativ yollarla bağlı təkliflər azdır;
- Dünyada mənzil təminatı su və sanitariya, elektrik enerjisi, bağlantı, ictimai xidmətlər, təhsil, səhiyyə və təmiz hava kimi daha geniş iqtisadi və infrastruktur sistemlərinə lazımi səviyyədə inteqrasiya olunmur. İnfrastrukturun və təməl xidmətlərin əlaqələndirilməməsi, texniki xidmət göstərilməməsi və maliyyələşdirilməməsi mənzil çatışmazlığının təsirlərini daha da kəskinləşdirir;
- Beton kimi tikinti və inşaat materiallarından, aşağıkarbonlu alternativlərdən, ənənəvi və yerli tikinti üsullarından istifadə qlobal istixana qazı tullantılarının təxminən üçdəbirini təşkil edir;
- Qeyri-adekvat peşəkar potensial, məlumatlar və faktlar çox vaxt zəif qərarqəbuletmə prosesinə səbəb olur, istismarçı təcrübələri və korrupsiyanı təşviq edir.

Bu ortaq xüsusiyyətlərə baxmayaraq, hər bir məhəllə, şəhər, ölkə, region və qitə fərqlidir. Bu böhranın həqiqi mahiyyətini anlamaq üçün yerli və milli konteksti öyrənmək vacibdir.

Bu qlobal çağırışın miqyası qətiyyətli, razılaşdırılmış və təxirəsalınmaz cavab tədbirləri tələb edir. Bu Fəaliyyətə Çağırışın mərkəzində mənzil məsələlərinin yenidən prioritetləşdirilməsi, inteqrasiya olunmuş mənzil siyasətlərinin idarə edilməsi, mütəşəkkil çoxtərəfli fəaliyyət, uzunmüddətli maliyyələşdirmə, təkmilləşdirilmiş icra potensialı, çoxsəviyyəli idarəetmə, davamlı dövlət investisiyası və ölçüləbilən hesabatlılıq mexanizmləri ilə dəstəklənməsi tələb olunur.

## DİAQNOZDAN FƏALİYYƏTƏ KEÇİD

Biz beynəlxalq səviyyədə tanınan insan hüququ kimi Adekvat Mənzil Təminatının qəbul edilməsindən tutmuş Yaşayış Mühiti Proseslərinə, 2030-cu il Gündəliyinə və Gələcək Paktına qədər mənzil məsələlərində çoxtərəfli fəaliyyətə gətirib çıxaran davamlı öhdəlikləri yüksək qiymətləndiririk. Yeni Şəhər Gündəliyinin 10-cu ildönümünü qeyd etdiyimiz bir ildə üzv dövlətləri qlobal mənzil böhranının daha səmərəli həlli üçün icranı sürətləndirməyə və BMT-nin Məskunlaşma Proqramının tərəfdaşlıq və koordinasiya kimi hərəkətverici funksiyasını gücləndirməyə çağırırıq.

BMT-nin Məskunlaşma Proqramının 2026-2029-cu illərdə Strateji Planı hamı üçün adekvat mənzil üzrə Hökumətlərarası Açıq Tərkibli Ekspert İşçi Qrupu vasitəsilə mənzil məsələlərində fəaliyyətin sürətləndirilməsi məqsədilə bir proqram təqdim edir. Üzv dövlətlər və maraqlı tərəflər işçi qrupunda fəal iştiraka, ekspertlərin və mütəxəssislərin namizədliyini irəli sürməyə və az təmsil olunan qrupların daxil edilməsini təmin etməklə inklüziv iştirakın təşviqinə çağırılırlar.

Növbəti onilliyi və sonrakı beş WUF sessiyasını (2026-2036) Yeni Şəhər Gündəliyinin icrasını sürətləndirmək və Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə nəzərəçarpacaq irəliləyişə nail olmaq üçün Fəaliyyət onilliyi kimi təqdim etmək baxımından gözəl bir fürsət yaranır. WUF-un nəticələri izləniləbilən öhdəlikləri əhatə etməli, uğurlu proqramları və layihələri sənədləşdirməli, 2030-cu ildən sonrakı gündəliyin hazırlanmasında nəzərə alınmaq üçün icra yollarını paylaşmalıdır.

Regional və milli proseslər mənzil gündəliyində güclü siyasi dinamika yaratmağa kömək edir. Yeni Şəhər Gündəliyinin Nazirlər İclasının xülasəsi, İkinci Afrika Şəhər Forumunun Nayrobi Bəyannaməsi (aprel 2026) və s. adekvat, əlverişli, inklüziv və iqlimədayanıqlı mənzil məsələlərində iddialı prioritetləri müəyyənləşdirir. Bu sənəd həmçinin Cənub-Cənub və Şimal-Cənub əməkdaşlığının öyrənilməsinin və əməkdaşlığın yeni formalarının mümkünlüyünü təqdim edir.

Bu fəaliyyətə çağırışlar üç sahəyə bölünür: mənzil böhranının əsas hüquqlarını və hərəkətverici amilləri qəbul etmək, onun birbaşa təzahürlərinə qarşı tədbirlər görmək və hər kəsə ədalətli, inklüziv, dayanıqlı və davamlı gələcək üçün mənzil sistemlərini dəyişdirmək.

## ƏSAS HÜQUQLARIN VƏ HƏRƏKƏTVERİCİ AMİLLƏRİN QƏBUL EDİLMƏSİ

**1. İnsan hüquqlarını qoruyun, onlara hörmət edin və onları təmin edin!**

Müxtəlif kontekstlərdə mənzil hüquq kimi deyil, əmtəə kimi qəbul olunmağa davam edir, evlərin sökülməsi, münaqişələr və köçürülmələr ləyaqətə, təhlükəsizliyə və yaşayış təsərrüfatlarına xələl gətirir. Biz məcburi köçürülmələrə qarşı təminat, daha güclü mülkiyyət, kirayəçilərin müdafiəsi və ədalətə çıxış daxil olmaqla, mənzil məsələsində insan hüquqları yanaşmasının tam şəkildə qəbuluna və tətbiqinə çağırırıq. Beynəlxalq təşkilatların dəstəyi ilə milli və yerli hökumətlər bunları mənzilin sosial, ekoloji funksiyasını tanıyan və qoruyan hüquqi, siyasi, torpaqdan istifadənin planlaşdırılması və institusional çərçivə sənədlərinə daxil etməlidirlər. Biz regional, milli və yerli mənzil sistemləri daxilində icma tərəfindən idarə olunan və iştirakçı yanaşmaların institusionallaşdırılmasına çağırış edirik.

**2. Evlərimizi qoruyun!**

Ailələr, fərdlər və məcburi köçkünlər tez-tez qeyri-sabit və ya keyfiyyətsiz mənzillərdə yaşamağa məcbur edilir ki, bu da onları yenidən yaşayış yerini dəyişməyə, qeyri-sabitliyə və təcrid olunmağa məruz qoyur. Biz humanitar yardımı, bərpa və uzunmüddətli inkişafı əlaqələndirən, həssas və münaqişədənsonrakı şəraitdə iqlim dəyişmələrinə dayanıqlı və insanlara yönəlmiş şəhər bərpasını təşviq edən, onların inkişafa və iqlim maliyyəsinə çıxışını asanlaşdıran inteqrasiya olunmuş mənzil yanaşmalarının tətbiqinə çağırırıq. Milli və yerli hökumətlər, humanitar və inkişaf məsələləri ilə məşğul olanlar, beynəlxalq qurumlar mənzil və vacib mülki infrastrukturu qorumalı, köçkünlüyə və dağıntılara qarşı qorunma tədbirlərini gücləndirməli, bu qorunmaların səmərəli şəkildə həyata keçirilməsini təmin edən mexanizmləri dəstəkləməlidirlər. Ev sahibi Azərbaycan hökuməti də daxil olmaqla, münaqişədənsonrakı yenidənqurma üçün əhəmiyyətli qlobal presedentlər mövcuddur. Yenidənqurma və bərpa səylərinə, nəticədə məcburi köçkünlərin evlərinə qayıtmasını prioritetləşdirmək üçün əlaqələndirilmiş yanaşmaya çağırırıq. "Sərbəst və Əvvəlcədən Məlumatlandırılmış Razılıq" prinsipi bütün Milli Hökumətlər tərəfindən təmin edilməlidir.

**3. Müxtəlifliyimizi qəbul edin!**

Mənzil sistemləri yerli xüsusiyyətləri, torpağa və mənzilə çıxışı formalaşdıran, bir çoxları üçün təcrid olunmanı və qeyri-bərabər nəticələri gücləndirən cins, etnik mənsubiyyət, mədəniyyət, yaş, əlillik, hüquqi status və vətəndaşlıq kimi müxtəlif reallıqları nəzərə almamağa davam edir. Biz insanları siyasətin və icranın mərkəzinə yerləşdirən, müxtəlif qrupları həmmüəlliflər kimi tanıyan mənzil məsələsində nəsillərarası və çoxplanlı yanaşmaların tətbiq olunmasına çağırırıq. Vətəndaş cəmiyyəti və yerli hərəkatlar hökumət, özəl sektor və mütəxəssislərlə birlikdə mənzil siyasətində müxtəlifliyi tətbiq etməli və qorumalıdırlar.

**4. Evlərimizi iqlim dəyişmələrinə dayanıqlı edin!**

İqlim dəyişmələrinin təsirləri mənzil təhlükəsizliyini və yaşayış yerlərinin dəyişmələrini sürətləndirir, məhəllələr, şəhərlər və bölgələrdə onsuz da sosial, iqtisadi və ekoloji qeyri-sabitliklə üzləşən icmalara qeyri-mütənasib şəkildə təsir göstərir. Tez-tez təkrarlanan daşqınlar, quraqlıqlar, biomüxtəlifliyin itirilməsi, çirklənmə, kəskin istilər və pisləşən hava keyfiyyəti ictimai sağlamlığa, ekosistemlərə, dolanışıq vasitələrinə, yaşayış üçün rahatlığa və ümumi həyat keyfiyyətinə dağıdıcı təsir göstərir. Biz iqlim ədalətinə sadiq olan və ekoloji cəhətdən şüurlu urbanizasiya və planlaşdırma ilə dəstəklənən təbiətə əsaslanan, icma tərəfindən idarə olunan və yerli həllər vasitəsilə iqlim dəyişmələrinə müqaviməti möhkəmləndirən, biomüxtəlifliyi qoruyan və zərərli təsirləri azaldan mənzil sistemləri yaratmağa çağırış edirik. Biz dayanıqlı infrastruktur, bərpaolunan enerji, təməl xidmətlər, fəlakətlərə hazırlıq və onların qarşısının alınması, dolanışıq imkanları və sosial şəbəkələr istiqamətində makromilli və yerli hökumət fəaliyyətləri ilə yanaşı, insanlar tərəfindən idarə olunan yerli və ənənəvi təcrübələri gücləndirməyə çağırırıq.

## BİRBAŞA TƏZAHÜRLƏRƏ QARŞI TƏDBİRLƏR

**5. Ev inteqrasiyanın katalizatoru kimi!**

Mənzillər çox vaxt infrastrukturdan, əsas xidmətlərdən və iqtisadi imkanlardan təcrid olunmuş şəkildə yerləşir, şəhərlərin plansız genişlənməsi, məkan üzrə ayrı-seçkilik və zəif əlaqələndirilmiş torpaq istifadəsi planlaşdırılması isə aşağıgəlirli ailələri iş yerlərindən, xidmətlərdən və imkanlardan uzaq olan kənar və təcrid edilmiş ərazilərə sıxışdırır. Biz mənzilləri nəqliyyat, xidmətlər, dolanışıq imkanları, təbii və mədəni irslə əlaqələndirən inteqrasiya olunmuş və iştirakçılığa əsaslanan, gender yanaşmasını nəzərə alan məkan planlaşdırılması yanaşmasına çağırırıq. Eyni zamanda qarışıq, inklüziv və lazımi xidmətlərlə təmin edilmiş nəsillərarası məhəllələrin təşviqi vacibdir. Biz peşəkarları, akademik dairələri, tədqiqat institutlarını hökumət və vətəndaş cəmiyyəti ilə birlikdə mənzil, iqtisadi imkanları, nəqliyyatı əhatə edən inteqrasiya olunmuş şəhərsalma və məqsədyönlü subsidiyalar üzrə ortaq baxış formalaşdırmağa çağırırıq.

**6. Mənzillərin hər kəs üçün əlçatan olmasını təmin edin!**

Torpaq qiymətlərinin artması, əmlak spekulyasiyası, qısamüddətli icarələr, qeyri-sabit əmək bazarları, məhdud mənzil təklifi və maliyyəyə qeyri-bərabər çıxış səbəbindən mənzil getdikcə daha əlçatmaz olur, bu isə bir çox ailələri evsizlik və qeyri-qənaətbəxş yaşayış şəraitinə məcbur edir. Biz əlçatanlığın artırılması üçün davamlı tədbirlərə çağırırıq; bunlara kirayə və sosial mənzillərə çıxışın genişləndirilməsi, inklüziv zonalaşdırmanın təşviqi, subsidiyaların və xərclərin azaldılması strategiyalarının gücləndirilməsi, spekulyativ təcrübələrin tənzimlənməsi, əmlak vergisi sistemlərinin və müxtəlif gəlir qrupları üçün maliyyəyə çıxış imkanlarının təkmilləşdirilməsi daxildir. Biz parlament üzvlərini və milli hökumətləri əlçatanlığı qoruyan qanunvericilik tədbirləri qəbul etməyə, eyni zamanda dövlət mənzil proqramları, İnkişaf Maliyyə İnstitutları (DFI), özəl sektor və fərdi tikinti təşəbbüsləri vasitəsilə mənzil təminatını artırmağa çağırırıq.

**7. Ayrı-seçkilik olmadan mənzil təmin edin!**

Məhəllələr yalnız fiziki quruluş və yerləşmədən ibarət deyil, onlar qayğı, sosial əlaqə, mədəniyyət, təhlükəsizlik və kollektiv həyat məkanlarıdır ki, insan potensialının, rifahın və icma mənsubiyyətinin inkişafına imkan yaradır. Biz genderi, müxtəlifliyi və cinsi oriyentasiyanı nəzərə alan, genderəsaslı zorakılığın aradan qaldırılması, ictimai və ortaq məkanların gücləndirilməsi, universal və inklüziv mənzil dizaynının təşviqi vasitəsilə əlçatanlığı, yaxınlığı, təhlükəsizliyi, rifahı və sosial inklüzivliyi dəstəkləyən mənzil yanaşmalarına çağırırıq. Biz hökumətləri, peşəkar qurumları və vətəndaş cəmiyyətini sosial həmrəyliyi gücləndirən, ayrı-seçkiliyi azaldan, təhlükəsizliyi, sağlamlığı və ləyaqəti yaxşılaşdıran inklüziv və müxtəlif təyinatlı məhəllələrin formalaşdırılması üçün aydın qaydalar hazırlamağa çağırırıq.

**8. Məcburi köçürmələri dayandırın!**

Məcburi köçürmələr və yerdəyişmələr beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının kobud şəkildə pozulması hesab olunur, mənzil təhlükəsizliyini azaldır, dolanışıq vasitələrini məhv edir, iqlim böhranını dərinləşdirir, insan ləyaqətini sarsıdır və icma sistemlərini zəiflədir, çox vaxt isə adekvat təminatlar və alternativlər olmadan həyata keçirilir. Biz məcburi köçürmələrə və yerdəyişmələrə qarşı daha güclü müdafiə mexanizmlərinin yaradılmasına çağırırıq. Bunlara hüquqi təminatlar, monitorinq mexanizmləri və yaşayış hüququnun təhlükəsizliyini təmin edən qabaqlayıcı yanaşmalar daxildir. Eyni zamanda yerində yenidənqurma, icmaəsaslı yanaşmalar, eləcə də köçürmənin qaçılmaz olduğu hallarda adekvat kompensasiya və alternativlərin təmin edilməsi prioritet olmalıdır. Parlament komitələri, hökumət qurumları, insan hüquqları institutları və BMT agentliklərinin dəstəklədiyi beynəlxalq təşkilatlar məcburi köçürmələrin və yerdəyişmələrin qlobal miqyasda monitorinqi, xəritələndirilməsi və aradan qaldırılması üçün hesabatlılığı gücləndirməli və daimi çoxtərəfli mexanizmlər yaratmalıdırlar.

## MƏNZİL SİSTEMLƏRİNİN TRANSFORMASİYASI

**9. Mənzil yanaşmalarını şaxələndirin!**

Milyonlarla insan artıq özünün tikdiyi, mərhələli və qeyri-formal mənzil sistemləri vasitəsilə şəhərlərin formalaşmasına töhfə verir, lakin bu reallıqlar hələ də siyasətdən və hüquqi tanınmadan kənarda qalır. Biz mərhələli mənzil tikintisini, şəhər miqyasında qeyri-formal yaşayış məntəqələrinin yaxşılaşdırılmasını, leqallaşdırmanı, kirayə və sosial mənzilləri, kooperativləri, icma torpaq fondlarını, inklüziv mənzil layihələrini və icmaəsaslı yaşayış təşəbbüslərini əhatə edən müxtəlif və yerli şəraitə əsaslanan yanaşmaya çağırırıq. Biz milli və yerli hökumətlər, vətəndaş cəmiyyətləri, mənzil təminatçıları və operatorları, özəl sektorun maliyyə institutları və bankları arasında daha güclü əməkdaşlığı təşviq edirik. Bu əməkdaşlıq dövlət, özəl, icma, mikro və qarışıq maliyyə alətlərinin kombinasiyası vasitəsilə tələbatyönümlü proqramların innovativ şəkildə təşviqinə xidmət etməlidir.

**10. Mənzillər üçün torpaq təmin edin!**

Artan urbanizasiya, maliyyələşmənin genişlənməsi və zəif torpaq idarəetmə sistemləri torpaq qiymətlərinin yüksəlməsinə, əmlak spekulyasiyasına, məkan bərabərsizliyinə və yaşayış hüququnun qeyri-sabitliyinə səbəb olur. Biz torpaq bazarlarının uyğun şəkildə tənzimlənməsi, spekulyasiyanın qarşısının alınması, əmlak vergisi, inklüziv mənzil siyasəti, inkişaf ödənişləri və torpaq dəyərinin ədalətli bölüşdürülməsi vasitəsilə torpaq sistemləri üzərində daha güclü dövlət və yerli nəzarətə çağırırıq ki, bu da xidmətlərlə təmin olunmuş və riskləri azaldılmış torpağa bərabər çıxışı təmin etsin. Biz parlamentləri və milli qurumları torpaq idarəçiliyinin yerli hakimiyyət orqanlarına həvalə edilməsinə çağırırıq. Yerli hökumətlər, torpaq institutları, icmalar və inkişaf tərəfdaşları inklüziv və hesabatlı torpaq idarəetmə sistemlərini inkişaf etdirməklə yanaşı, torpaqdan istifadə hüquqlarını və müdafiə mexanizmlərini gücləndirməlidirlər.

**11. Maliyyəni ehtiyac olan yerlərə yönəldin!**

Mənzil maliyyələşdirmə sistemləri hələ də parçalanmış, əlaqələndirilməmiş və əlçatmaz olaraq qalır, dövlət investisiyaları məhduddur, kreditlərə çıxış qeyri-bərabərdir və mövcud mexanizmlər aşağıgəlirli ailələrə və icmalara çatmır. Biz inklüzivliyi və genişmiqyaslı tətbiqi prioritetləşdirən mənzil maliyyələşdirmə zəncirinin yenidən nəzərdən keçirilməsinə çağırırıq. Bu məqsədlə fiskal muxtariyyət və gəlir formalaşdırma strategiyalarına xüsusi diqqət yetirməklə bələdiyyə maliyyəsinin gücləndirilməsi vacibdir. Biz inkişaf banklarını və özəl sektoru kreditlərə çıxışı prioritetləşdirməyə, ərazi xüsusiyyətlərinə uyğun, uzunmüddətli və proqnozlaşdırılabilən maliyyələşdirmə mexanizmləri yaratmağa çağırırıq ki, bu imkanlar xüsusilə ən çox ehtiyacı olan insanlar üçün əlçatan olsun.

Biz özəl sektoru milli və yerli hökumətlərlə, mərkəzi banklarla, maliyyə institutları və təşkilatlanmış icma yığım sistemləri ilə əməkdaşlığa çağırırıq ki, risklərin hesablanması və idarə olunması, məqsədyönlü subsidiyaların tətbiqi, kreditlərə çıxışın genişləndirilməsi və qarışıq maliyyələşdirmə sahəsində yeni yanaşmalar formalaşdırılsın. Biz parlament üzvlərini və milli maliyyə qurumlarını dövlət subsidiyalarını şaxələndirməyə, bununla da özəl və icmaəsaslı yığım sistemlərini də əhatə edən müxtəlif mənzil yanaşmalarını dəstəkləməyə çağırırıq.

**12. Çoxsektorlu və çoxtərəfli yanaşmanı təşviq edin!**

Parçalanmış planlaşdırma sistemləri mənzili torpaq, infrastruktur, nəqliyyat, dolanışıq vasitələri və əsas xidmətlərdən ayıraraq sosial təcridi, məkan bərabərsizliyini və qeyri-səmərəli şəhər inkişafını daha da gücləndirir. Biz mənzilin daha geniş ərazi və şəhər inkişaf çərçivələrinə inteqrasiya olunduğu, eyni zamanda bərabərliyi, inklüzivliyi, məkan ədalətini və şəhər hüququnu təşviq edən inteqrasiya olunmuş və sisteməsaslı planlaşdırma yanaşmalarına çağırırıq. Biz bu prosesin nəticələrinin birgə formalaşdırılması üçün yerli hökumətlərin, vətəndaş cəmiyyəti təşkilatlarının, ictimai hərəkatların və özəl sektor nümayəndələrinin səlahiyyətlərinin genişləndirilməsi yolu ilə həyata keçirilməsini vacib hesab edirik.

**13. Çoxsəviyyəli və iştirakçılığa əsaslanan idarəetməni gücləndirin!**

Səmərəli mənzil sistemləri hökumətin bütün səviyyələri, eləcə də ictimai hərəkatlar, vətəndaş cəmiyyəti, peşəkarlar və inkişaf tərəfdaşları arasında güclü əməkdaşlıq, tərəfdaşlıq və koordinasiya tələb edir. Ortaölçülü şəhərlərdən meqapolislərə qədər yerli və regional hökumətlər çox vaxt lazımi səlahiyyət, maliyyə və institusional dəstək olmadan icra vəzifəsini yerinə yetirməyə məcbur olurlar. Biz üzv dövlətləri məsuliyyət bölgüsünü dəqiqləşdirən, institutlar, sektorlar və maraqlı tərəflər arasında koordinasiyanı yaxşılaşdıran, həmçinin mərkəzsizləşdirilmiş maliyyələşdirmə, iştirakçı planlaşdırma alətləri, gücləndirilmiş institusional və icra potensialı vasitəsilə yerli və regional hökumətlərin imkanlarını artıran struktur islahatlar həyata keçirməyə çağırırıq. Milli hökumətlər, yerli və regional hakimiyyət orqanları, icmalar, peşəkarlar, inkişaf tərəfdaşları və vətəndaş cəmiyyəti inklüziv mənzil təminatını, şəhər miqyasında qeyri-formal yaşayış məntəqələrinin yaxşılaşdırılmasını və yerliəsaslı şəhər transformasiyasını dəstəkləyən metropoliten və regional miqyaslı çoxsəviyyəli və çoxtərəfli idarəetmə mexanizmlərini gücləndirməlidirlər.

**14. İcra, hesabatlılıq və öhdəliklərin yerinə yetirilməsinə sadiq olun!**

Mənzil sahəsində öhdəliklər kifayət qədərdir, lakin zəif əlaqələndirmə, məhdud potensial və qeyri-səmərəli sistemlər səbəbindən onların icrası hələ də gözlənilən səviyyədən aşağıdır. Biz aydın fəaliyyət istiqamətləri, ölçüləbilən hədəflər, güclü monitorinq və hesabatlılıq mexanizmləri ilə müşayiət olunan milli mənzil strategiyalarının həyata keçirilməsinə çağırırıq. Bununla yanaşı, icra potensialını gücləndirən təhsil, təlim və peşəkar inkişaf sistemlərinə davamlı investisiyanın artırılması vacibdir.

Biz vətəndaş cəmiyyətini, yerli və milli hökumətləri tərəfdaşlıqlar qurmağa, güclü milli məskunlaşma forumları və birgə komitələr yaratmağa təşviq edirik ki, bu da potensialın artırılmasına, əlaqələndirmənin gücləndirilməsinə, uğurlu təcrübələrin sənədləşdirilməsinə və tərəqqinin monitorinqinə xidmət etsin. Qlobal səviyyədə isə BMT-nin Məskunlaşma Proqramını Yeni Şəhər Gündəliyinin icrasını izləmək və uğurlu mənzil təcrübələrinin genişləndirilməsi üçün əsas platforma kimi Ümumdünya Şəhərsalma Forumundan istifadə etməyə çağırırıq.

**15. Bilik və məlumatlardan ictimai maraqlar naminə istifadə edin!**

Mənzil sistemləri çox vaxt zəif torpaq qeydiyyatı, qeyri-kafi mənzil və bazar araşdırmaları, qeyri-dəqiq siyahıyaalma və detallaşdırılmamış demoqrafik məlumatlar, məhdud iqtisadi göstəricilər və köhnəlmiş informasiyalarla fəaliyyət göstərir ki, bu da sürətlə dəyişən ehtiyaclara, təbii fəlakətlərə və uzunmüddətli planlaşdırmaya adekvat cavab verməyi çətinləşdirir. Biz yerli və icmaəsaslı məlumatları elmi və akademik biliklərlə birləşdirən sübuta əsaslanan yanaşmaya güclü sadiqliyə çağırırıq. Biz akademik institutları, tədqiqat tərəfdaşlarını və praktik mütəxəssisləri bilik və potensial boşluqlarını aradan qaldırmağa, eyni zamanda süni intellektin imkanlarını inteqrasiya etməyə çağırırıq ki, daha güclü analitik və empirik çərçivələr formalaşdırılsın. Biz beynəlxalq təşkilatları, hökumətləri və akademik icmanı xüsusilə Qlobal Cənubda tədqiqatları sürətləndirmək üçün daha çox resurs cəlb etməyə təşviq edirik. Buraya iştirakçılığa əsaslanan planlaşdırma prosesləri üçün peşəkarların, dövlət rəsmilərinin, vətəndaş cəmiyyətinin və ictimai hərəkatların potensialının artırılmasına yönəlmiş məqsədyönlü proqramların hazırlanması da daxildir.

Sonda biz səmimi qonaqpərvərliyə görə Azərbaycan Hökumətinə və xalqına minnətdarlığımızı bildiririk. "Bakı Fəaliyyətə Çağırış" sənədi mənzil böhranını onun köklərində həll etməyə yönəlmiş iddialı bir çağırışdır. Biz birlikdə bu çağırışları heç kəsi kənarda qoymadan həll etməliyik.

**Qeyd:** "Bakı Fəaliyyətə Çağırış" məsləhətləşmələrə və müzakirələrə əsaslanaraq WUF13-lə bağlı maraqlı tərəflərin tələbatlarını nəzərə alan yekun sənəddir. Bu sənəd hökumətlərarası razılaşdırılmış nəticə deyil, üzv dövlətlərin, yaxud Birləşmiş Millətlər Təşkilatının Katibliyinin fikirlərini və ya rəsmi mövqelərini mütləq əks etdirmir.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# WUF13-ün rəsmi bağlanış mərasimi keçirilib




























**Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) rəsmi bağlanış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə WUF13-ün bağlanışına həsr olunan videoçarx nümayiş etdirilib və mədəni proqram təqdim olunub. Tədbirdə çıxış edən Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini Amina Mohammed Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) evsahibliyində göstərdikləri qonaqpərvərliyə və liderliyə görə Azərbaycan hökumətinə, xalqına ən dərin minnətdarlığını bildirərək deyib: "Azərbaycan 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan edərək, yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaları inkişaf etdirərək, həmçinin çoxəsrlik ənənələrə hörmətlə yanaşaraq urbanizmi qlobal müstəviyə qaldırıb".

WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev WUF13-ün təcrübəsini WUF14-ə hazırlıq prosesində bölüşməyə hazır olduqlarını qeyd edib. "WUF14-ə gedən yolda şəhərsalma gündəliyini irəli aparmaq və mənzil problemlərini işıqlandırmaq üçün əlimizdə daha bir mühüm platforma olacaq. Bu da Türkiyədə keçiriləcək COP31-dir", - deyə milli koordinator əlavə edib.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax WUF13-ün rekord sayda iştirakçını bir araya gətirdiyini və güclü, vahid bir mesaj verdiyini qeyd edib. "Biz mənzil təminatının gələcəyi üçün həlledici bir məqamdayıq. Artıq hərəkət vaxtıdır. Dünya cüzi tərəqqidən sistemli transformasiyaya doğru addımlamalıdır.

Bakıda verilən mesaj aydındır. Növbəti onillik sürətləndirilmiş icra, genişmiqyaslı fəaliyyət və insanların həyatında ölçüləbilən müsbət təsirlərlə xarakterizə olunmalıdır", - deyə A.Rossbax vurğulayıb.

Qambiyanın Banjul şəhərinin meri və "REFELA" Afrika şirkətinin prezidenti Rohey Malick Lowe deyib: "Bakıdan açıq şəkildə bəyan edirik ki, mənzil təminatı insan hüququdur. Bu, demokratik bir vəzifədir. Universal, əlçatan və ədalətli ictimai xidmətlər olmadan ləyaqətli mənzil şəraiti mövcud ola bilməz. Yerli və regional hakimiyyətlərin hər gün daşıdıqları nəhəng məsuliyyətə uyğun gücə, maliyyəyə və siyasi tanınmaya ehtiyacı var".

Argentinanın Kordoba Milli Universitetinin professoru, Latın Amerikası Qadınlar və Mənzil Şəbəkəsinin həmtəsisçisi Ana Falu qadınların siyasət subyekti kimi nəzərə alınmamasının bərabərsizliyi daha da pisləşdirdiyini qeyd edərək deyib: "Bu, xüsusilə qadınlara və onlardan asılı olanların həyatına təsir edən gərginliklər və ziddiyyətlər dünyasıdır. Buna görə də bu siyasəti təşviq etmək, dünyanın genişlənməsini nəzərə alaraq hərtərəfli bir sistem qurmaq lazımdır".

UN-Habitat Gənclər Məsləhət Şurasının üzvü Jonathan Oriki Some bildirib ki, "Bakı Fəaliyyətə Çağırış" sənədi ehtiyac duyduğumuz transformativ dəyişikliyə yol göstərə biləcək praktik, əlçatan və aydın bir yol xəritəsi təqdim edir. Bu, bizə xatırladır ki, fəaliyyətsiz baxışlar nə ev, nə şəhər, nə də gələcək qura bilər.

"LUMANTI" Sığınacaq Dəstək Qrupunun və Asiya Mənzil Hüquqları Koalisiyasının icraçı direktoru Lajana Manandhar Azərbaycan hökumətinə və xalqına göstərdiyi sevgi, qayğı və çox səmimi qonaqpərvərliyə görə təşəkkür edərək WUF13 çərçivəsində dünyanın gözəl şəhərlərindən biri olan Bakıda dünyanı təhlükəsiz və dözümlü şəhərlər, icmalarla təmin etmək mövzusunun müzakirə edildiyini vurğulayıb.

ADA Universitetinin dosenti Anar Vəliyev mənzil təminatı ilə bağlı qlobal çağırışın miqyasının qətiyyətli, birgə və təxirəsalınmaz cavab tədbirləri tələb etdiyini deyib. O, bu fəaliyyətə çağırışın mərkəzində mənzil təminatının yenidən prioritetləşdirilməsinin dayandığını qeyd edib.

Mexiko şəhərinin beynəlxalq əlaqələr üzrə baş koordinatoru Maria del Rosario Lombera Gonzalez şəhər hökuməti və Meksika nümayəndə heyəti adından, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasını təşkil etdiklərinə görə Azərbaycan xalqına və hökumətinə ən səmimi təbriklərini çatdıraraq, Bakının qonaqları böyük səxavət, istilik, əzəmət və heyranedici qətiyyətlə qarşıladığını bildirib.

Göstərilən səylərin xüsusi təşəkkürə layiq olduğunu vurğulayan baş koordinator bu işin asan olmadığını, lakin Azərbaycan hökumətinin buna baxmayaraq, onu nümunəvi şəkildə həyata keçirdiyini qeyd edib.

Daha sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun növbəti sessiyasına (WUF14) sədrlik Azərbaycandan Meksikaya təhvil verilib.

Sonda BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasını bağlı elan edib.

## WUF13-də "Yeni Şəhərsalma Proqramı" üzrə birgə səylər müzakirə edilib

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Yeni Şəhərsalma Proqramı üzrə növbəti 10 il üçün Birgə Səylərimiz" mövzusunda tədbir keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbir milli və yerli hökumətləri, regional qurumları, inkişaf tərəfdaşlarını, akademik dairələri, qadınları, gəncləri və digər əsas maraqlı tərəfləri bir araya gətirib. Məqsəd "Yeni Şəhərsalma Proqramı"nın (NUA) həyata keçirilməsinin onillik nəticələrini qiymətləndirmək və qarşıdakı 10 il üçün "yol xəritəsi"ni müəyyənləşdirmək olub. 2026-cı il hesabat dövrünün yaratdığı dinamika əsasında müzakirələr NUA-nın icrası, monitorinqi və hesabatlılığı ilə bağlı təcrübələri əhatə edib, xüsusilə müxtəlif kontekstlərdə əldə olunan dərslərə, uğurlu təcrübələrə və davam edən çətinliklərə diqqət yetirilib.

Sessiyada Milli Tərəqqi Hesabatlarının (NPRs) ölkələrə irəliləyişi qiymətləndirmək və boşluqları müəyyən etməkdə necə dəstək verdiyi araşdırılıb. Eyni zamanda bu proseslərin necə daha da gücləndirilə və daha inklüziv hala gətirilə biləcəyi, xüsusilə qadınların və gənclərin iştirakının necə artırılacağı müzakirə olunub. Panel iştirakçıları öz fəaliyyət sahələrində NUA-nın tətbiqinin təsirləri barədə fikirlərini bölüşüb, gözləntilərin hansı sahələrdə qarşılandığını və hansı istiqamətlərdə daha çox birgə səylərə ehtiyac olduğunu vurğulayıblar. Akademiyanın və inkişaf tərəfdaşlarının sübut bazasının formalaşdırılması, innovasiyaların dəstəklənməsi və davamlı iştirakın təmin olunmasındakı rolu da müzakirə edilib. Açıq dialoq və fikir mübadiləsi vasitəsilə sessiya NUA və onun 2026-cı il hesabat prosesi barədə anlayışı gücləndirməyi, 2026-2030-cu illər dövrü üçün Milli Tərəqqi Hesabatlarının vaxtında təqdim olunmasını təşviq etməyi və kollektiv fəaliyyətə ortaq bağlılığı möhkəmləndirməyi hədəfləyib. Nəticə etibarilə məqsəd NUA-nı qarşıdakı onillik ərzində inklüziv və dayanıqlı şəhər inkişafına istiqamət verən canlı bir çərçivə kimi mövqeləndirməkdir.

## WUF13 çərçivəsində ANAMA minatəmizləmənin şəhərlərin bərpasında strateji rolunu müzakirə edib

**Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən "Postmünaqişə dövründə şəhərlərin yenidən qurulması: Humanitar minatəmizləmənin mühüm rolu" mövzusunda tədbir keçirilib.**




AZƏRTAC xəbər verir ki, Azərbaycan pavilyonunda təşkil olunan tədbir ölkəmizin üzləşdiyi mina problemini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq, mina təhlükəsinin bərpa və yenidənqurma prosesinə təsirini vurğulamaq, eləcə də minatəmizləmə sahəsində qlobal əməkdaşlıq və bərpa təcrübələrini müzakirə etmək məqsədilə dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirib.

Tədbirdə çıxış edən ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, minatəmizləmə yalnız insanların həyatını xilas edən humanitar fəaliyyət deyil, eyni zamanda bərpa və yenidənqurmanın əsas təməlidir. Bu fəaliyyət yaşayış evlərinin yenidən inşası, infrastrukturun bərpası, kənd təsərrüfatının dirçəldilməsi, nəqliyyat şəbəkələrinin inkişafı və iqtisadi fəaliyyətin canlandırılması üçün zəruri şəraiti formalaşdırır. Böyük qayıdış çərçivəsində minatəmizləmə fəaliyyəti şəhərsalma, yenidənqurma və inkişaf proseslərinə tam şəkildə inteqrasiya edilib.

O vurğulayıb ki, mina təhlükəsi tək Azərbaycanda deyil, dünyanın bir sıra ölkələrində bərpa prosesini ləngidir, inkişaf imkanlarını məhdudlaşdırır və əhalinin təhlükəsizliyini risk altında saxlayır. Məhz buna görə də bugünkü platforma xüsusi əhəmiyyət daşıyır. Mina probleminin aradan qaldırılması yalnız milli səylərlə məhdudlaşmır, davamlı beynəlxalq dəstək, tərəfdaşlıq, innovativ yanaşmalar və qabaqcıl təcrübələrin paylaşılmasını zəruri edir. ANAMA yanında İctimai Şuranın sədr müavini Emil Həsənovun moderatorluq etdiyi panel müzakirələrdə ANAMA-nın İdarə Heyəti sədrinin müavini Samir Poladov, Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri, səfir Mariyana Kuyundziç, ADA Universitetinin professoru, Meksikanın Azərbaycandakı keçmiş səfiri Rodrigo Labardini, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Layihələrin idarə edilməsi şöbəsinin müdiri Ramil Cahangirov iştirak ediblər.

Şəhərlərin yenidən qurulmasının əsasını təşkil edən minatəmizləmə fəaliyyəti və Azərbaycanın bu sahədə təcrübəsi, münaqişədən sonrakı dövrdə bərpa və yenidənqurmanın dəstəklənməsi üçün beynəlxalq əməkdaşlıq, eləcə də minalardan təmizlənmiş ərazilərdə şəhərsalma və yenidənqurma mövzularında panel müzakirələr keçirilib.

Müzakirələrdə münaqişədən sonrakı dövrdə təhlükəsiz və inklüziv şəhərlərin yenidən qurulmasında humanitar minatəmizləmənin strateji əhəmiyyəti xüsusi vurğulanıb.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

**Dünya nizamının hərbi-siyasi sarsıntılar, regional münaqişələr və qlobal iqlim böhranları ilə sınağa çəkildiyi bir dövrdə Azərbaycan humanitar diplomatiyanın və böyük quruculuq missiyasının yeni mərkəzinə çevrilib. COP29 kimi qlobal iqlim sammitindən sonra Bakının BMT-nin 13-cü Ümumdünya Şəhərsalma Forumuna (WUF13) evsahibliyi etməsi təkcə növbəti beynəlxalq uğur deyil, həm də rəsmi Bakının formalaşdırdığı yeni reallığın təntənəsidir. Məhz Bakıda keçirilən forum urbanizasiya proseslərini sırf memarlıq müstəvisindən çıxararaq birbaşa dövlət liderlərinin siyasi iradəsinin əsas hədəfinə çevirdi.**




# 176 ölkə, 58 mindən çox iştirakçı

## İlham Əliyevin liderliyini dünya WUF13-lə bir daha təsdiqlədi

Mayın 22-də Bakıda təşkil olunan BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) bağlanış mərasimi keçirilib. Qeyd edək ki, dünyanın ən nüfuzlu tədbirlərindən olan WUF13-də 176 ölkədən 58 mindən çox iştirakçı yer alıb. Forumda 11 dövlət başçısı, 9 yüksəksəviyyəli qonaq, 88 nazir, 76 nazir müavini və 130 bələdiyyə sədri iştirak edib. Forum çərçivəsində ümumilikdə 579 sessiya keçirilib, 125 ölkədən 400-ə yaxın məruzəçi əsas proqramda çıxış edib. Yeni Şəhər Gündəliyinin icrasına həsr olunmuş nazirlər görüşündə 111 ölkədən 80-i nazir və ya nazir müavini səviyyəsində təmsil olunub. "Urban Expo" sərgisinə 74 mindən çox ziyarət qeydə alınıb.

Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə WUF tarixində ilk dəfə keçirilən liderlər bəyanatı sessiyası forumun ən mühüm yeniliklərindən biri olub. Sessiyada 27 dövlət və hökumət başçısı, eləcə də beynəlxalq təşkilatların rəhbərləri iştirak edərək, qlobal şəhər gündəliyinə siyasi dəstəyi nümayiş etdiriblər.

Ümumdünya Şəhərsalma Forumunun tarixində ilk dəfə təşkil edilən QHT Forumunda 100-dən çox ölkədən 800-ə yaxın nümayəndə iştirak edib. WUF13 çərçivəsində keçirilən QHT Forumunda qəbul olunan Bakı Bəyannaməsini 82 ölkədən 441 vətəndaş cəmiyyəti nümayəndəsi imzalayıb. Forum çərçivəsində fəaliyyət göstərən QHT Pavilyonunda 59 tədbir keçirilib və bu tədbirlərdə 3 minə yaxın yerli və xarici iştirakçı yer alıb. 1000-dən çox akkreditə olunmuş media nümayəndəsi WUF13-ü geniş şəkildə işıqlandıraraq dayanıqlı urbanizasiya və beynəlxalq əməkdaşlığın əhəmiyyətinin qlobal miqyasda təşviqinə töhfə verib.

Forumun bağlanış mərasimində çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax Ümumdünya Şəhərsalma Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür edib. O bildirib ki, həftə ərzində nümayiş etdirilən müstəsna qonaqpərvərlik, təşkilatçılıq və liderlik WUF13-ü, həqiqətən, qlobal toplantıya çevirib. Rossbax Azərbaycanın dayanıqlılığını, qətiyyətini və yüksəksəviyyəli öhdəliyini xüsusi vurğulayıb: "Azərbaycan dünyaya təkcə qurmaq deyil, həm də yenidən qurmaq və transformasiya etmək bacarığını göstərdi". UN-Habitat rəhbəri vurğulayıb ki, Bakıdan verilən çağırışın bütün dünyaya çatdırılması vacibdir və qlobal şəhər icması əldə olunan bilik, təcrübə və ideyalardan faydalanmalıdır.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) təmsilçiləri, xarici qonaqlar da WUF13-ün yüksək səviyyədə təşkil edildiyni və qarşıya qoyduğu hədəflərə nail olduğunu qeyd ediblər.

Azərbaycan növbəti mötəbər beynəlxalq tədbirə yüksək səviyyədə evsahibliyi etməklə qlobal arenadakı mövqeyini daha da möhkəmləndirdi. COP29-dan WUF13-ə doğru uzanan uğurlu diplomatik varislik fonunda yeni qlobal reallıq formalaşdırdı. Bakı Forumunda sırf memarlıq və tikinti məsələləri ilə yanaşı, müasir şəhərlərin səmərəli inkişafı üçün zəruri olan fundamental mövzular müzakirə olundu. Dayanıqlı inkişaf, qlobal urbanizasiya, insan rifahının yüksəldilməsi kimi genişmiqyaslı çağırışlar diqqət mərkəzində saxlanıldı. Bu xüsusiyyətlərinə görə forum qlobal şəhərsalma tarixinə çox mühüm və effektiv hadisə kimi yazıldı.

Bakı platformasının ən mühüm tərəflərindən biri Azərbaycanın öz potensialını və reallıqlarını dünyaya yenidən nümayiş etdirməsi oldu. Forumda iştirak edən 176 ölkənin nümayəndələri Azərbaycanın multikultural dəyərləri, Qarabağ həqiqətləri və ölkəmizin unikal bərpa modeli ilə yaxından tanış olmaq imkanı qazandılar. Bakı özünü təkcə qonaqpərvər ev sahibi kimi deyil, həm də şəhərsalma və məskunlaşmanın işlək örnəyi kimi təqdim edə bildi. Azərbaycan hazırda şəhərlərin yenilənməsi, "yaşıl infrastruktur"un genişləndirilməsi, mənzil şəraitinin yaxşılaşdırılması, iqlim dayanıqlığının artırılması və inklüziv icmaların formalaşdırılması istiqamətində genişmiqyaslı layihələr həyata keçirir.

Xüsusən işğaldan azad edilmiş ərazilərdə dünyanın ən iri yenidənqurma proqramlarından biri icra olunur. "Böyük qayıdış" proqramı çərçivəsində ölkənin öz maliyyə resursları hesabına 12 şəhər və 300-dən çox kənd yenidən qurulur. Ölkəmiz işğaldan azad edilmiş ərazilərdə tətbiq etdiyi müasir şəhər konsepsiyaları və irimiqyaslı infrastruktur layihələri ilə öz zəngin təcrübəsini beynəlxalq birliyə ötürdü.

Forum çərçivəsində səslənən innovativ fikirlər, irəli sürülən qlobal təşəbbüslər və qarşılıqlı təcrübə mübadiləsi şəhərsalma sahəsində gələcək hədəflərin müəyyənləşdirilməsinə xidmət edir. Müxtəlif ölkələrin uğurlu təcrübələrinin öyrənilməsi gələcəkdə daha dayanıqlı, təhlükəsiz və ekoloji cəhətdən təmiz şəhər modellərinin formalaşmasına güclü təkan verəcək.

Bu mötəbər tədbir qlobal medianın diqqətini yenidən Bakıya yönəltdi. Müzakirə olunan mövzuların məğzi, əhəmiyyəti və gələcək gözləntilər dünya mətbuatında geniş işıqlandırıldı.

İndiyə qədər Ümumdünya Şəhərsalma forumları daha çox texniki, memarlıq və yerli idarəetmə səviyyəli müzakirələrlə məhdudlaşırdı. Prezident İlham Əliyevin təşəbbüsü ilə bura liderlər sessiyasının əlavə edilməsi mövzunu birbaşa dövlət başçıları və qlobal siyasət səviyyəsinə qaldırdı. Şəhərsalma, sadəcə, tikinti deyil, dayanıqlı inkişaf, iqlim dəyişikliyi və təhlükəsizlik fonunda strateji və siyasi prioritet kimi qəbul olunmağa başlandı. Bakının həm iştirakçı sayı, həm nümayəndəliklərin səviyyəsi, həm də qəbul edilən qərarların miqyası baxımından ən yaddaqalan foruma evsahibliyi etməsi ölkənin logistik, təşkilati və intellektual potensialının zirvəsidir.

Nəticə etibarilə qlobal iqlimin gələcəyini COP29 ilə formalaşdıran Azərbaycan bu gün WUF13 ilə bəşəriyyətə daha yaşıl və dayanıqlı yaşayış məskənlərinin xəritəsini təqdim etdi. Güclü siyasi iradə və milli bərpa modeli ilə fəlakət zonalarını sülhün və tərəqqinin mərkəzinə çevirən Azərbaycan qlobal şəhərsalma tarixinə öz silinməz imzasını atdı. Məhz buna görədir ki, dünya Prezident İlham Əliyevin şəhərsalma sahəsində uzaqgörən liderliyini alqışladı.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# 103 ölkədən 569 QHT WUF13-lə bağlı Bakı Bəyannaməsi imzalayıb

"Global South NGO Platform"un təşəbbüsü və təşkilatçılığı ilə WUF13-lə bağlı Bakı Bəyannaməsi hazırlanıb. Sənəd WUF13-də iştirak edən xarici QHT təmsilçilərinə imza üçün açıq olub. Bakı Bəyannaməsini 103 ölkədən 569 QHT təmsilçisi imzalayıb.

AZƏRTAC xəbər verir ki, sənəddə deyilir:

"Biz - WUF13 çərçivəsində Bakıda toplaşan vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri olaraq aşağıdakıları bəyan edirik:

-Azərbaycanı WUF13-ün uğurlu təşkilinə, beynəlxalq şəhər dialoquna və əməkdaşlığa verdiyi mühüm töhfə münasibətilə təbrik edirik. Forumun tarixində ilk dəfə keçirilən liderlər sammiti şəhər inkişafını yeni siyasi müstəviyə qaldıraraq, beynəlxalq gündəliyin prioritetləri sırasına daxil etdi;

- dünyanın müxtəlif yerlərində urbisid, kultursid və ekosidin təzahür etdiyi bir dövrdə Azərbaycanın postmünaqişə dövründəki bərpa və yenidənqurma təcrübəsi beynəlxalq ictimaiyyət üçün vacib metodoloji nümunədir. Bu xüsusda biz "Azərbaycan təcrübəsi"nin dünyanın postmünaqişə bölgələrinin yenidən qurulmasında beynəlxalq etalon və bu sahədə forumlarda əsas istinad kimi qəbul olunmasını təklif edirik;

- WUF tarixində ilk dəfə Bakıda keçirilmiş QHT Forumu WUF prosesində vətəndaş cəmiyyətinin iştirakı üçün yeni bir mərhələdir;

- müxtəlif ölkələrdən 1000-dən çox QHT-ni özündə birləşdirən Qlobal Cənub QHT Platformasının (GSNP-nin) ilk Baş Assambleyasının çağırılması və rəhbərliyinin formalaşdırılması qlobal vətəndaş cəmiyyətinin institusional cəmləşməsində tarixi mərhələdir. GSNP şəbəkəsi vasitəsilə qəbul edilən bu Bəyannamə əlçatan mənzil imkanlarını və inklüziv şəhər inkişafını dəstəkləmək naminə qlobal həmrəylik aktı kimi çıxış edir. Biz "UN Habitat"ı bu təşəbbüsü dəstəkləməyə davam etməyə, GSNP-ni WUF-un rəsmi vətəndaş cəmiyyəti tərəfdaşı kimi tanımağa və bu modeli gələcək forumların daimi komponenti etməyə çağırırıq. Uğurlu şəhər inkişafı təcrübələrini sistemləşdirmək və bölüşmək üçün Qlobal Cənub Şəhərləri üzrə Bilik Mərkəzinin yaradılmasını təklif edirik;



- Bakıdan bütün beynəlxalq tərəfdaşlara üz tutaraq, onları insan mərkəzli şəhər siyasətlərini dəstəkləməyə və şəhər dayanıqlığı, davamlı inkişaf və inklüziv cəmiyyətlər naminə daha əlaqələndirilmiş qlobal fəaliyyət göstərməyə çağırırıq;

- Qarşıdakı WUF sessiyalarının WUF13 təcrübəsinə əsaslanan birgə əməliyyat qaydalarının hazırlanması ilə bağlı Niyyət Məktubundan irəli gələrək, "Bakı Standartı"na uyğun təşkil olunmasını təşviq edirik".

22 may 2026-cı il, Bakı, Azərbaycan.

Qeyd edək ki, "Bakı Bəyannaməsi" "Global South NGO Platform"un (GSNP) tərəfdaşlığı və Azərbaycanın QHT Agentliyinin təşkilatçılığı ilə cari il mayın 19-da WUF tarixində ilk dəfə keçirilmiş "WUF13 NGO Forum"dan üç gün sonra qəbul edilib. 800-ə yaxın xarici və yerli QHT təmsilçilərinin iştirakı ilə baş tutmuş "WUF13 NGO Forum"dakı müzakirələrdə WUF13-də təmsil olunan yerli və xarici QHT-lərin GSNP-nin Urban qanadını formalaşdırması təklif olunub. "WUF13 NGO Forum"un açılış mərasimində BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax bəyan edib ki, bu forum WUF üçün tarixi hadisədir. BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Katib "Global South NGO Platform"u fantastik layihə adlandırıb və bu platformanın Bakıda təsis olunmasına görə Azərbaycanı təbrik edib. "UN-Habitat"ın İdarə Heyətinin sabiq katibi Kristian Mensah GSNP-ni WUF13-də yerli və xarici QHT-lər üçün vətəndaş cəmiyyəti habı yaratması münasibətilə təbrik edib. O bildirib ki, hazırkı mürəkkəb beynəlxalq şəraitdə "Bandunq prinsipləri" yenidən aktuallıq qazanır və bu tədbir həmin prinsiplərin əməkdaşlıq və çoxtərəfli tərəfdaşlıq müstəvisində tətbiqinin real təzahürüdür.

# WUF13-də tarixi şəhərlərin rəqəmsal transformasiyası və "ağıllı qoruq" yanaşması müzakirə olunub

Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində keçirilən "Tarixi şəhərlərdə rəqəmsal transformasiya - ağıllı irs, məlumatlara əsaslanan idarəetmə və inklüziv şəhər gələcəyi" mövzusunda tədbirdə rəqəmsal texnologiyaların tarixi şəhərlərin idarə olunmasında rolu, "ağıllı qoruq" yanaşması və məlumatlara əsaslanan idarəetmə mexanizmləri müzakirə olunub.



AZƏRTAC xəbər verir ki, tədbirdə irs qurumlarının nümayəndələri, şəhərsalma üzrə ekspertlər iştirak ediblər.

Sessiyada ağıllı irs idarəçiliyi, turizm axınlarının tənzimlənməsi, nəqliyyat və mobilliyin optimallaşdırılması, rəqəmsal xidmətlərin genişləndirilməsi və məlumat əsaslı şəhərsalma qərarlarının qəbulu ilə bağlı fikir mübadiləsi aparılıb.

İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud bildirib ki, tarixi şəhər mühitinin canlılığının qorunması və dayanıqlı idarə olunması məqsədilə İçərişəhərdə "ağıllı qoruq" konsepsiyası əsasında kompleks idarəetmə modeli formalaşdırılır. Onun sözlərinə görə, hazırda təxminən 5000 nəfərin yaşadığı İçərişəhərdə əsas məqsəd ərazinin yalnız turizm məkanı deyil, həm də yaşayan şəhər kimi inkişafını təmin etməkdir.

R.Mahmud qeyd edib ki, son bir ildə hazırlanmış üçillik strategiya çərçivəsində irsin qorunması, mədəni proqramların təşkili, icmanın proseslərə cəlbi, şəhər idarəetməsinin optimallaşdırılması və nəqliyyatın tənzimlənməsi əsas istiqamətlər kimi müəyyən olunub. O vurğulayıb ki, tarixi şəhər mühitində məqsəd reaktiv deyil, proaktiv və planlı idarəetmə mexanizmlərinin tətbiqidir.

İdarə Heyətinin sədri əlavə edib ki, İçərişəhərdə sakinlərin sosial-demoqrafik göstəricilərini, yaşayış şəraitini və şəhər mühitinə dair məlumatları əhatə edən inteqrasiya olunmuş rəqəmsal idarəetmə və kadastr platforması yaradılır. Bildirilib ki, yeni sistem vasitəsilə gender göstəriciləri, yaş qrupları, ailələrin gəlir mənbələri və həssas qruplara dair məlumatlar vahid elektron bazada toplanacaq.

Onun sözlərinə görə, aparılan təhlillər nəticəsində sakinlərə göstərilən xidmətlərin keyfiyyətinin artırılması məqsədilə xüsusi xidmət mərkəzi də yaradılıb. Rəqəmsal naviqasiya sistemləri vasitəsilə həm sakinlərin, həm də turistlərin şəhər daxilində istiqamətlənməsi asanlaşdırılıb. Sessiyada çıxış edən Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin Memarlıq sektorunun müdiri Gülnar Əliyeva isə bildirib ki, "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunda rəqəmsal kadastr sisteminin yaradılmasına başlanılıb. Onun sözlərinə görə, yeni sistem torpaq sahələri, tikililər və mülkiyyət formaları üzrə məlumatların vahid rəqəmsal platformada toplanmasını təmin edəcək.

G.Əliyeva qeyd edib ki, Şəkidə "ağıllı qoruq" konsepsiyasının tətbiqi də nəzərdə tutulur. Konsepsiya çərçivəsində turistlər üçün naviqasiya və məlumatlandırma sistemlərinin yaradılması, eləcə də rəqəmsal bilet satışı sisteminin tətbiqi planlaşdırılır. Bildirilib ki, bu yeniliklər ziyarətçilərin qoruq ərazisini daha rahat və səmərəli şəkildə ziyarət etməsinə imkan verəcək.

Tədbirdə həmçinin UNESCO Ümumdünya İrs siyahısına daxil olan tarixi ərazilərdə rəqəmsal alətlərin irsin qorunması, ziyarətçi axınının idarə olunması və şəhər aktivlərinin effektiv idarə edilməsinə verdiyi töhfələr də diqqətə çatdırılıb.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM



# Azərbaycanın beynəlxalq əlaqələri yüksək qiymətləndirilir

### Abimbola Musiliat Haroon AFUNKU: "Bakının füsunkar gözəlliyi insanı ilk baxışdan valeh edir"



"Bakıda insanlar çox mehriban, qonaqpərvər və yardımsevərdirlər. Şəhər isə olduqca gözəldir. Bakının füsunkar gözəlliyi insanı ilk baxışdan valeh edir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında WUF13 çərçivəsində Nigeriyadan ölkəmizə səfər edən şəhərsalma mütəxəssisi Abimbola Musiliat Haroon Afunku səsləndirib.

O bildirib ki, Bakı haqqında ilk təəssüratları olduqca müsbətdir: "Bura çox gözəl ölkədir. İnsanlar çox mehribandırlar, qonaqları səmimi qarşılayırlar. Burada olmaqdan həqiqətən zövq alıram".

A.M.H.Afunku şəhərsalma mövzusunun önəmini vurğulayaraq, müasir şəhərlərin ekoloji və dayanıqlı prinsiplər əsasında qurulmasının vacibliyini qeyd edib.

Qida məsələsinə də toxunan Abimbola Musiliat Haroon Afunku Azərbaycan milli mətbəxinə böyük marağının olduğunu vurğulayıb. O, zəngin Azərbaycan mətbəxini kəşf etmək niyyətindədir: "Azərbaycan mətbəxinin dadını çıxarmağa həqiqətən də səbirsizlənirdik".

O, Bakıda həmkarları və dostları ilə birlikdə iştirak etdiyini bildirib.

### İjang MBAH: "WUF13 indiyədək keçirilən ən yaxşı forumlardan biri oldu"



"WUF13 indiyədək keçirilən ən yaxşı forumlardan biri oldu. Azərbaycan hökumətinə bu möhtəşəm tədbirə evsahibliyi etdiyinə görə təşəkkür edirəm".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında WUF13 çərçivəsində Kamerundan ölkəmizə səfər edən "Green Ambassador World Cameroon" təşkilatının nümayəndəsi İjang Mbah səsləndirib.

O bildirib ki, Azərbaycana ilk dəfədir səfər edir və Bakı onda çox xoş təəssüratlar yaradıb: "Bakı çox gözəl şəhərdir. İnsanlar olduqca mehriban və qonaqpərvərdirlər. Burada hər şey çox gözəldir və mən yenidən Azərbaycana gəlmək istərdim".

Azərbaycanın beynəlxalq əlaqələrinin uğurlu inkişafını yüksək qiymətləndirən İjang Mbah ölkəmizin qlobal müstəvidə artan rolunu xüsusi vurğulayıb: "Müasir dünya artıq vahid və sıx inteqrasiya olunmuş qlobal məkana çevrilib. Bu baxımdan insanlar arasında ünsiyyət və əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın beynəlxalq dialoq mərkəzi kimi cəlbediciliyini nəzərə alaraq, bu məkana daha çox insanın səfər etməsi və ölkənizin zəngin imkanları ilə tanış olması üçün perspektivlərin daha da genişlənməsini arzulayıram".

Kamerunlu nümayəndə forum çərçivəsində göstərilən yüksək xidməti, təşkilatçılığı və qonaqpərvərliyi xüsusi qeyd edib.

### Babajide Rotimi OLALEYE: "Bakı qədim memarlıqla müasir şəhərsalmanı uğurla birləşdirir"



"Azərbaycanda keçirdiyim günlər mənim üçün həm maraqlı, həm də öyrənilməli təcrübə oldu".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında WUF13 çərçivəsində Nigeriyadan ölkəmizə səfər edən doktorant Babajide Rotimi Olaleye səsləndirib.

Bakının onda çox müsbət təəssüratlar yaratdığını bildirən qonaq ölkəmiz və tədbir haqqında fikirlərini bu sözlərlə bölüşüb: "Azərbaycan xalqı olduqca qonaqpərvərdir, burada çox gözəl və səmərəli vaxt keçirdik. Qlobal forum isə bizim üçün olduqca maarifləndirici oldu. Bir doktorant olaraq, müxtəlif ölkələrin şəhərsalma sahəsindəki qabaqcıl təcrübələrini öyrənmək mənim üçün çox faydalı və əvəzolunmaz bir imkan yaratdı".

Babajide Rotimi Olaleye xüsusilə Azərbaycanın şəhərsalma və memarlıq yanaşmasını yüksək qiymətləndirib: "Azərbaycan pavilyonunda şəhərin memarlığı, planlaşdırılması və qədim şəhərsalma ənənələrinin müasir yanaşmalarla necə uzlaşdırıldığı barədə çox məlumat əldə etdim. Eyni zamanda milli mədəniyyətin qorunaraq müasir yanaşmalarla uzlaşdırılması olduqca diqqətimi çəkdi".

O, forum çərçivəsində Kolumbiya nümayəndələri ilə də faydalı görüşlər keçirdiyini və müxtəlif ölkələrin təcrübələrinin paylaşılmasının əhəmiyyətini vurğulayıb.

### Şerli Mol Abraham MAMMEN: "WUF13 möhtəşəm və faydalı tədbir oldu"



"WUF13 çox möhtəşəm və faydalı tədbir oldu".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında WUF13 çərçivəsində Hindistandan ölkəmizə səfər edən Şerli Mol Abraham Mammen səsləndirib.

O bildirib ki, Ümumdünya Şəhərsalma Forumu müxtəlif ölkələrdən olan insanların bir araya gələrək şəhərlərin inkişafı ilə bağlı fikir mübadiləsi aparması baxımından mühüm platforma oldu.

Hindistanlı qonaq forumun təşkilini və burada yaradılan beynəlxalq əməkdaşlıq mühitini yüksək qiymətləndirib.

### BMT nümayəndəsi: "WUF13 şəhərsalma məsələlərinin müzakirəsi üçün mühüm platforma kimi yadda qaldı"



"WUF13 mənzil və şəhərsalma sahəsində problemlərin müzakirəsi üçün müxtəlif tərəfləri bir araya gətirən əhəmiyyətli platforma kimi yadda qaldı".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında BMT-nin İnsan Məskənləri Proqramında fəaliyyət göstərən keniyalı nümayəndə Hezekiah Pireh səsləndirib.

O bildirib ki, Ümumdünya Şəhərsalma Forumu evsizlik probleminin aradan qaldırılması, insanların keyfiyyətli mənzillərlə təmin olunması və daha yaxşı şəhər mühitinin yaradılması baxımından böyük əhəmiyyət kəsb edir: "Burada əsas məqsəd insanların daha yaxşı yaşayış şəraitinə qovuşması, əsas xidmətlərlə təmin olunan və düzgün planlaşdırılmış yaşayış məhəllələrinin formalaşdırılması istiqamətində fikir mübadiləsi aparmaqdır".

Ölkəmizə ilk dəfə səfər etdiyini vurğulayan Hezekiah Pireh Azərbaycandakı mühitin onda dərin təəssürat buraxdığını diqqətə çatdırıb.

### Debolina KUNDU: "Bakının memarlığı olduqca cəlbedicidir"



"WUF13 müxtəlif ölkələrin şəhərsalma sahəsində uğurlu təcrübələrini nümayiş etdirdiyi çox vacib və maraqlı bir forum oldu".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında WUF13 çərçivəsində Hindistandan ölkəmizə səfər edən Debolina Kundu səsləndirib.

O bildirib ki, forum müxtəlif ölkələrdən olan iştirakçıların bir araya gələrək təcrübə mübadiləsi aparması və yeni əməkdaşlıqlar qurması baxımından böyük əhəmiyyətə malikdir: "Burada şəbəkələşmə tədbirləri, urban kitabxana, urban kino və digər platformalar yaradılıb. Müxtəlif sosial və iqtisadi təbəqələri təmsil edən insanlar bir araya gələrək qarşılıqlı fikir mübadiləsi apardı və bir-birindən öyrəndilər".

Debolina Kundu Bakı haqqında da fikirlərini bölüşərək deyib: "Şəhəri gəzmək imkanım oldu. Bakı çox gözəl, səliqəli və təmiz şəhərdir. Şəhərin memarlığı isə olduqca cəlbedicidir".

### Bonifeys Xolisa MDLULİ: "Bakı gözəl, sakinləri isə qonaqpərvərdir"



"WUF13 qlobal şəhərsalma gündəliyinin formalaşdırılması baxımından mühüm platformadır. Forum müxtəlif ölkələrin şəhər idarəçiliyi sahəsində təcrübə mübadiləsi aparması üçün geniş imkanlar yaradır".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında WUF13-də iştirak edən Esvatini nümayəndəsi Bonifeys Xolisa Mdluli bildirib. O qeyd edib ki, forum dünyada şəhərlərlə bağlı baş verən prosesləri daha yaxından izləmək və müxtəlif ölkələrin təcrübələrindən faydalanmaq üçün mühüm məkandır. Burada bir çox vacib mövzular müzakirə olundu. Xüsusilə şəhərsalma layihələrinin maliyyələşdirilməsi, davamlı inkişaf mexanizmləri və sosial rifah məsələləri diqqət mərkəzindədir. Əsas məqsəd dünyada urbanizasiya istiqamətində formalaşan yeni yanaşmaları anlamaq və bütün ölkələrin bu prosesdə ortaq prinsiplər əsasında hərəkət etməsinə nail olmaqdır. Burada əsas məqsədlərdən biri də insanların hüquqlarına və yaşayış şəraitinə hörmətin təmin edilməsidir. Hər kəsin layiqli yaşayış məkanına sahib olması vacib məsələdir.

Bonifeys Xolisa Mdluli Bakıya ilk dəfə səfər etdiyini də bildirib. O, Azərbaycanın gözəlliyinə və insanların qonaqpərvərliyinə diqqət çəkərək deyib: "Azərbaycan çox gözəl ölkədir. İnsanlar isə olduqca mehriban və qonaqpərvərdirlər".

### Hazeezat Titilayo NİNALOVO: "Bakının memarlıq nümunələri xoş təəssüratlar yaradır"



"WUF beynəlxalq əməkdaşlıq və peşəkar şəbəkələşmə baxımından mühüm, maarifləndirici tədbirdir. Burada müxtəlif ölkələrdən olan insanlarla tanış olur, onların təcrübələrini öyrənir və yeni inkişaf imkanları əldə edirsən".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Nigeriya nümayəndəsi Hazeezat Titilayo Ninalovo bildirib. O, forumun planerlər, dizaynerlər və digər şəhərsalma mütəxəssisləri üçün geniş imkanlar yaratdığını vurğulayıb: "Forum insanlara gələcəyin şəhərlərinin necə qurulmalı olduğunu göstərdi. Texnologiyanın həyatımıza təsiri getdikcə artır və burada təqdim olunan yanaşmalar bunu bir daha nümayiş etdirdi", - deyə o bildirib.

Hazeezat Titilayo Ninalovo Bakıya ilk dəfə gəldiyini qeyd edib: "Şəhərin sakit atmosferi və qədim memarlıq nümunələri məndə xoş təəssürat yaratdı. Bakıya ilk dəfədir gəlirəm, amma son olmayacaq. Burada qədim binaların qorunub saxlanılması xüsusi diqqətimi çəkdi. Tarix və müasirliyin bir arada olması şəhərə fərqli gözəllik verir".

Qonaq forum çərçivəsində təşkil olunan panel müzakirələrinin onun üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O bildirib ki, tədbirdə qadınların cəmiyyətdə rolu, sosial rifah, ekoloji problemlər və dayanıqlı inkişaf kimi mövzular geniş müzakirə olunub: "Panellərdə xüsusilə qadınların cəmiyyətdə iştirakı və sosial rifah məsələləri ön plana çıxdı. Bununla yanaşı, ekoloji böhran, tullantıların idarə olunması və su ehtiyatlarından səmərəli istifadə müasir şəhərsalmanın əsas istiqamətlərindəndir. Bu məsələlər bütün ölkələr üçün aktualdır və burada müxtəlif həll yolları təqdim olunur".

### Şariq As SABAH: "Bakıda havanın keyfiyyəti yüksək səviyyədədir"



"Bakıya ilk dəfə təxminən 7-8 il əvvəl gəlmişdim. O zaman şəhər məndə xoş təəssürat yaratmışdı. Amma bu illər ərzində şəhərdə yaxşılığa doğru xeyli dəyişikliklər olub. Şəhərin yolları, infrastrukturu, ümumi şəhərsalma yanaşması yüksək səviyyədədir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında hindistanlı Şariq As Sabah deyib. O, xüsusilə Bakının hava keyfiyyətini yüksək qiymətləndirib: "Burada hava çox yaxşıdır. Hindistanda, əsasən də Dehlidə hava keyfiyyəti o qədər də yaxşı deyil. Buna görə Bakı ilə Dehli arasındakı fərqi hiss edirəm. Mənim KOAH xəstəliyim (xroniki obstruktiv ağciyər xəstəliyi) var. Buna görə mənim üçün təmiz hava çox önəmlidir və burada olduğum müddətdə bunun müsbət təsirini hiss edirəm".

Şariq As Sabahın fikrincə, şəhərlərin gələcək inkişafında ekoloji dayanıqlılıq, hava keyfiyyəti və insan yönümlü infrastruktur əsas prioritetlərdən biri olmalıdır.

### Nurcan ZOLDAS: "WUF13 yüksək səviyyədə təşkil olunub"



"WUF13 xalqlar arasında mədəni əlaqələrin genişlənməsi baxımından mühüm platforma oldu".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Qazaxıstan pavilyonunda musiqi proqramı ilə çıxış edən Nurcan Zoldas deyib. Onun sözlərinə görə, kollektiv Aktobe şəhərinin Murat Tlenidbayev adına Aktobe Vilayət Filarmoniyasını təmsil edir. Ansamblda iki dombra və bir çertər musiqi alətindən istifadə olunur. Nurcan Zoldas özü də dombra ifaçısı kimi çıxış edir. WUF13-də Qazaxıstanın zəngin milli irsini nümayiş etdiriblər.

"Bakıya ilk dəfədir gəlirəm. Şəhər çox xoşuma gəldi. Bakı inkişaf etmiş, müasir və gözəl şəhərdir. İnsanların səmimi münasibəti, şəhərin ümumi atmosferi bizdə çox xoş təəssürat yaratdı", - deyə o qeyd edib.

Musiqiçi forumun yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. O bildirib ki, tədbir çərçivəsində müxtəlif ölkələrin pavilyonları ilə tanış olmaq, yeni ideya və mədəniyyətləri görmək imkanı əldə ediblər. Qeyd edib ki, forum sadəcə şəhərsalma sahəsində deyil, həm də xalqlar arasında mədəni əlaqələrin genişlənməsi baxımından mühüm platforma kimi yadda qaldı.

### Tarun Çerian CORC: "Müxtəlif ölkələrin təcrübələrini öyrənmək imkanı əldə etdim"



"Bakı rahat hərəkət imkanları və yaşıllıq zonaları ilə seçilir. İlk dəfədir gəldiyim bu şəhərin quruluşunu çox bəyəndim. Bakını rahat gəzmək olur, şəhərin ümumi atmosferi insanı cəlb edir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Hindistanda fəaliyyət göstərən "IDFC Foundation" adlı qeyri-hökumət təşkilatında çalışan Tarun Çerian Corc qeyd edib. Qonaq bildirib ki, Bakı şəhərinə ilk dəfədir səfər edir və şəhər onda xoş təəssüratlar yaradıb: "Forum möhtəşəm şəkildə təşkil olunub. Burada müxtəlif ölkələrin təcrübələrini öyrənmək imkanını əldə etdim".

### Simon OKOT: "Belə tədbirlər urbanizasiya çağırışlarının həllinə töhfələr verir"



"WUF13 mənim üçün olduqca unikal təcrübə oldu. Belə qlobal forumda ilk dəfə iştirak etdim. Tədbirin miqyası, təşkilatçılığı və beynəlxalq maraq səviyyəsi məndə böyük təəssürat yaratdı".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında UN-Habitat ilə əməkdaşlıq edən keniyalı Simon Okot söyləyib. O vurğulayıb ki, forum şəhərsalma, dayanıqlı inkişaf və urbanizasiya sahəsində çalışan mütəxəssislər üçün mühüm platforma oldu. Onun sözlərinə görə, tədbir müxtəlif ölkələrdən olan iştirakçılar arasında fikir mübadiləsi aparmaq, yeni yanaşmaları öyrənmək və gələcək əməkdaşlıqlar qurmaq baxımından geniş imkanlar yaratdı.

Qonaq bildirib ki, forum çərçivəsində təqdim olunan innovativ həllər və müzakirələr şəhərlərin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından xüsusi əhəmiyyət daşıyır. O əlavə edib ki, belə beynəlxalq tədbirlər ölkələr arasında təcrübə paylaşımını gücləndirir və urbanizasiya ilə bağlı qlobal çağırışların həllinə töhfə verir. Keniyalı nümayəndə WUF13-ün yüksək səviyyədə təşkil olunduğunu da diqqətə çatdırıb, Azərbaycanın paytaxtının müasir infrastrukturu, qonaqpərvərliyi və tədbirin peşəkar şəkildə təşkili ilə seçildiyini bildirib.

*Ülkər XASPOLADOVA,*
*Təhminə VERDİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Ənənələrin, dəyərlərin və təcrübələrin qovuşduğu platforma

**Paytaxtımızda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) qlobal şəhərsalma gündəmini müəyyənləşdirən ən mühüm beynəlxalq platformalardan biri kimi tarixə düşdü. Mayın 17-dən başlayan və mayın 22-dək davam edən forum Azərbaycanın beynəlxalq nüfuzunu, təşkilatçılıq imkanlarını və urban inkişaf sahəsində artan rolunu bir daha dünyaya nümayiş etdirdi.**


























BMT-nin Məskunlaşma Proqramı, UN-Habitat və Azərbaycanın birgə təşkil etdiyi forum "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunub. Dünyanın 182 ölkəsindən 45 mindən çox iştirakçının qeydiyyatdan keçməsi WUF13-ün miqyasını və beynəlxalq əhəmiyyətini göstərdi. Dövlət rəsmiləri, şəhərsalma mütəxəssisləri, memarlar, alimlər, investorlar və beynəlxalq təşkilatların nümayəndələri Bakıda bir araya gələrək gələcəyin şəhərləri ilə bağlı fikir mübadiləsi apardılar.

Forumun ən maraqlı və canlı hissələrindən biri isə "Urban Expo" sərgisi idi. Burada qurulan pavilyonlar müxtəlif ölkələrin şəhərsalma təcrübələrini, innovativ texnologiyalarını və milli xüsusiyyətlərini nümayiş etdirirdi. Sərgidə ümumilikdə 121 pavilyon fəaliyyət göstərirdi ki, onların da 41-i milli pavilyonlar idi. Hər pavilyon özündə memarlıq və urbanizasiya nümunələri ilə yanaşı, həmin ölkələrin mədəniyyətini, düşüncə tərzini və gələcəyə baxışını əks etdirirdi.

Xarici pavilyonlar arasında, xüsusilə diqqət çəkənlərdən biri Hindistan pavilyonu idi. "Hindistanın şəhər transformasiyası: Milyardlarla arzunun mənzillə təmin edilməsi" konsepsiyası əsasında qurulan pavilyonda ölkənin urban inkişaf mərhələləri və müasir şəhərsalma strategiyası təqdim olundu. Pavilyon vasitəsilə milli, regional və şəhər səviyyəsində həyata keçirilən layihələrin innovativ siyasətlər, proqramlar və əməkdaşlıq mexanizmləri sayəsində milyonlarla insanın yaşayış şəraitinin yaxşılaşdırılmasına necə töhfə verdiyi nümayiş etdirildi. Pavilyonun əsas ideyası Hindistanın gələcəyin şəhərlərini formalaşdırmaq üçün dövlət qurumları, özəl sektor və digər tərəfdaşlar arasında əməkdaşlığa əsaslanan geniş bir platforma yaratdığını nümayiş etdirmək idi. Bu model urban problemlərin daha effektiv idarə olunmasına imkan yaradır, eyni zamanda şəhərlərin sosial, iqtisadi və coğrafi baxımdan daha balanslı və inklüziv inkişafını dəstəkləyir.

Türkiyə pavilyonu isə müasir şəhərsalma ilə milli memarlıq ənənələrinin vəhdətini nümayiş etdirirdi. Burada "ağıllı şəhər" texnologiyaları və "yaşıl enerji" layihələri ön plana çıxarılır. Pavilyonda nümayiş olunan layihələr urban inkişafın binaların inşası ilə yanaşı, həm də insanların həyat keyfiyyətinin yüksəldilməsi olduğunu göstərir.

Səudiyyə Ərəbistanı pavilyonunda isə Krallığın bələdiyyə, mənzil və şəhərsalma sahələrində fəaliyyət göstərən 20-dən çox dövlət, özəl və qeyri-kommersiya qurumu təmsil olunurdu. Burada ölkənin urban inkişaf strategiyası və şəhərlərin gələcəyi ilə bağlı həyata keçirilən layihələr nümayiş etdirilirdi. Pavilyonda şəhər və mənzil layihələri rəqəmsal təqdimatlar, interaktiv modellər və vizual həllər vasitəsilə təqdim olunurdu. Burada keçirilən müzakirələr zamanı şəhərsalma, dayanıqlılıq, mənzil maliyyələşdirilməsi, innovasiya, süni intellekt və müasir texnologiyaların urban inkişafda rolu ətrafında fikir mübadiləsi aparıldı. Pavilyonda, həmçinin şəhər yenilənməsi, yaşayış layihələrinin genişləndirilməsi, vətəndaşların mənzil imkanlarının artırılması və sosial yaşayış proqramları ilə bağlı təşəbbüslər də nümayiş etdirilirdi. Səudiyyə Ərəbistanı pavilyonunda iştirakçı qurumlar üçün ayrıca bölmələr yaradılıb. Pavilyon, eyni zamanda "Səudiyyə Ərəbistanı Vizyonu 2030" çərçivəsində həyata keçirilən urban inkişaf strategiyasını da əks etdirir. Burada həyat keyfiyyətinin yüksəldilməsi, evsahibliyi səviyyəsinin artırılması, şəhər dayanıqlığının gücləndirilməsi və innovativ şəhər layihələrinin həyata keçirilməsi istiqamətində görülən işlər təqdim olunurdu.

Meksika pavilyonunda dayanıqlı şəhərsalma ilə bağlı müxtəlif təşəbbüs və təcrübələr nümayiş etdirildi. Burada şəhər mühitinin daha ekoloji, inklüziv və dayanıqlı inkişafına yönəlmiş yanaşmalar ziyarətçilərə təqdim olundu. Qazaxıstan pavilyonu da geniş təqdimatları və milli irsi nümayiş etdirən quruluşu ilə "Urban Expo" sərgisinin diqqət çəkən stendlərindən biri oldu. Burada ölkənin şəhərsalma sahəsində həyata keçirdiyi layihələr, innovativ yanaşmalar və dayanıqlı inkişaf istiqamətləri ziyarətçilərə təqdim olundu. Eyni zamanda pavilyon Qazaxıstanın müasir urban transformasiya təcrübəsini və gələcək şəhər vizyonunu əks etdirdi.

Qırğızıstan pavilyonunda İssık-Qul vilayətində, Bişkekdə və ölkənin digər yaşayış məntəqələrində həyata keçirilən şəhər və infrastruktur layihələri təqdim olunurdu. Xüsusilə Tamçı azad maliyyə-iqtisadi zonasında icra edilən layihələr diqqət çəkirdi ki, bu da ölkənin turizm sektorunun inkişafına yeni imkanlar yaradır. Həmçinin pavilyonda Qırğızıstanın qış turizmi sahəsində həyata keçirdiyi irimiqyaslı təşəbbüslər və inkişaf planları da nümayiş etdirilmişdi.

Afrika ölkələrinin pavilyonları isə urbanizasiya prosesinin fərqli tərəflərini nümayiş etdirirdi. Təqdim edilən layihələrdə şəhərlərdə sosial bərabərliyin təmin olunması, yaşayış məkanlarının əlçatanlığı və iqlim dəyişikliklərinə uyğunlaşma məsələləri ön plana çıxırdı. Həmçinin məskunlaşma problemləri və onların həlli yolları diqqətə çatdırılır. Burada urbanizasiya prosesinin idarəolunan şəkildə həyata keçirilməsinin vacibliyi vurğulanırdı.

Digər ölkələrin pavilyonlarında əsas diqqət "yaşıl şəhər" anlayışına yönəlmişdi. Müxtəlif ölkələr şəhərlərdə karbon emissiyalarının azaldılması, ictimai nəqliyyatın inkişafı və ekoloji memarlıq nümunələrini təqdim etdilər.

Forumun maraqlı cəhətlərindən biri də o idi ki, pavilyonlarda urbanizasiya, memarlıq, milli irs və mədəniyyət də nümayiş olunurdu. Musiqi, milli ornamentlər, ənənəvi memarlıq elementləri və mədəni təqdimatlar foruma xüsusi rəng qatırdı. Bu isə WUF13-ü həm də mədəniyyətlərin görüş platformasına çevirmişdi.

Bakıda keçirilən forum Azərbaycanın beynəlxalq dialoq mərkəzi kimi rolunu da gücləndirdi. COP29-dan sonra WUF13 kimi mötəbər tədbirin ölkəmizdə təşkili göstərdi ki, Azərbaycan artıq qlobal problemlərin müzakirə olunduğu əsas platformalardan birinə çevrilib. Burada səsləndirilən fikirlər və təqdim olunan layihələr gələcəyin şəhərlərinin necə formalaşacağı barədə mühüm mesajlar verdi.

WUF13 bir daha göstərdi ki, şəhərlər insanların həyat tərzini, təhlükəsizlik anlayışını, mədəni dəyərlərini və gələcəyə baxışını formalaşdıran canlı məkanlardır. Bakıda təqdim olunan pavilyonlar müxtəlif ölkələrin urban inkişaf, dayanıqlılıq və innovasiya sahəsində baxışlarını əks etdirərək qlobal şəhər gələcəyinə dair mühüm mesajlar verdi. Azərbaycanın evsahibliyi etdiyi bu forum beynəlxalq urban inkişaf dialoqunda mühüm platformalardan biri kimi yadda qaldı.

*Təhminə VERDİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Azərbaycanın töhfələri D-8-i daha çevik struktura çevirir

**Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlarda təkcə iştirakçılıqla deyil, qlobal proseslərə yön verən təşəbbüskarlıqları ilə diqqət çəkir. Bunun ən bariz nümunəsi kimi, Azərbaycanın inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzv qəbul edilməsindən dərhal sonra bu platformada aparıcı aktorlardan birinə çevrilməsini göstərmək olar. Ölkəmiz təşkilatın tərkibinə daxil olduğu qısa zaman kəsiyində strateji mərkəzlərin yaradılması və mühüm iqtisadi dialoqların mərkəzinə çevrilməsi ilə D-8-in tarixində yeni bir inkişaf dinamikası yaradıb. Bu aktiv fəaliyyət Azərbaycanın beynəlxalq nüfuzunun və müstəqil xarici siyasət kursunun məntiqi nəticəsidir.**



## Sohail MAHMUD: "WUF13-ün təşkili Azərbaycan üçün COP29-dan sonra daha bir uğur sayılır"

Mayın 17-də BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak etmək üçün ölkəmizə gələn D-8-in baş katibi Sohail Mahmudun bəyanatları Azərbaycanın qlobal təşkilatçılıq imicini bir daha təsdiqlədi.

WUF13 çərçivəsində keçirilən D-8 Yüksək Səviyyəli Enerji və Şəhərsalma Dialoqundakı çıxışında baş katib Azərbaycanın COP29-dan sonra növbəti böyük uğura imza atdığını vurğuladı: "BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) təşkilinə, davamlı şəhərlərin qurulmasındakı səylərinə görə Azərbaycanı təbrik edirəm. WUF13-ün təşkili Azərbaycan üçün COP29-dan sonra daha bir uğur sayılır".

Baş katib Sohail Mahmud həmçinin mayın 20-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla görüşündə ölkəmizin D-8 daxilindəki fəaliyyətini yüksək qiymətləndirərək, bu tərəfdaşlığın qlobal böhranlar fonunda mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Görüş zamanı Azərbaycan ilə D-8 arasında mövcud əməkdaşlıq gündəliyi müzakirə edilib, siyasi, iqtisadi, energetika, nəqliyyat və logistika sahələrində əlaqələrin daha da inkişaf etdirilməsi imkanları nəzərdən keçirilib. Azərbaycanın D-8 üzvlüyünə qəbul edilməsindən sonra keçən qısa müddət ərzində təşkilat daxilində apardığı aktiv fəaliyyəti yüksək qiymətləndirilib, 2025-ci ilin oktyabr ayında Azərbaycanda ilk dəfə olaraq D-8 Həftəsinin təşkili, bu çərçivədə D-8 Enerji və İqlim Mərkəzi, D-8 Media Mükəmməllik Mərkəzi və D-8 Nəqliyyat Mükəmməllik Mərkəzinin ölkəmizdə yaradılması ilə bağlı atılan əməli addımlar məmnunluqla xatırlanıb.

Görüşdə həmçinin regional və beynəlxalq təhlükəsizlik məsələləri nəzərdən keçirilib, Yaxın Şərqdə gərginliyin azaldılması, atəşkəsin möhkəmləndirilməsi, sabitliyin təmin olunmasının vacibliyi qeyd edilib.

Azərbaycanın D-8 daxilindəki rolunun əsas göstəricisi ölkəmizin təşəbbüsü ilə yaradılan və təşkilatın gələcək fəaliyyətini istiqamətləndirəcək yeni institusional mərkəzlərdir. Ümumiyyətlə, ölkəmizin bu platformada fəal iştirakı aparılan düzgün və prinsipial siyasətin təzahürüdür.

## Qoşulmama Hərəkatından D-8-ə

D-8 təşkilatı yarandığı 1997-ci ildən bəri ilk dəfə məhz Azərbaycanın üzvlüyü ilə öz coğrafiyasını genişləndirib. Belə ki, 2024-cü il dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammiti zamanı Azərbaycan yekdilliklə D-8-in üzvü seçilib. Sözügedən təşkilata üzv qəbul edilməsi ölkəmizə göstərilən hörmət və etimadın nəticəsidir. 1,3 milyarda yaxın əhalini və 5 trilyon dollar ÜDM-i təmsil edən bu qurum Azərbaycanın qoşulması ilə daha çevik və nəticəyönümlü struktura çevrilməkdədir. "Bizim orada artıq rəsmən iştirakımız, əlbəttə ki, bizə olan hörmətin əlamətidir və bizim apardığımız müstəqil siyasətin nəticəsidir və dərhal biz fəal işlərə başladıq. Bizim təşəbbüsümüzlə Azərbaycanda təşkilatın bir neçə mərkəzi yaradılmışdır - media, iqlim, ekologiya, energetika, nəqliyyat və biz də təbii ki, bu təşkilatda fəal üzv kimi iştirak edəcəyik", - deyə bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev ölkəmizin D-8-in işinə verdiyi əməli töhfələrdən söz açmışdı.

Sülhü, tolerantlığı, multikultural dəyərləri daim təbliğ edən Azərbaycanın daxil olduğu beynəlxalq təşkilatlarda qısa zamanda aparıcı rola sahib olması təsadüfi deyil.

Dünyanın bir çox beynəlxalq qurumunda üzv dövlət kimi uğurla təmsil olunan ölkəmiz bəşəri qərarların qəbuluna və icrasına birbaşa töhfələr verir. Buna dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatının (QH) da məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşaması nümunədir.

2019-cu ildə Bakıda QH-nin Zirvə toplantısını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan 2019-2022-ci illər üçün sədrliyi üzərinə götürmüşdür. Yenə də ölkəmizə böyük hörmət və yüksək etimadın nəticəsi olaraq 120 dövlətin yekdil qərarı ilə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi 2023-cü ilin axırınadək uzadılmışdı. Hərəkata sədrlik etdiyi dövrdə Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirilib. Xüsusən dövlətimizin rəhbərinin təşəbbüsləri ilə QH-nin pandemiya ilə mübarizə tədbirləri qlobal səviyyədə təqdir olunub. 2021-ci ilin dekabr ayında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edilmişdi.

Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə 100-dən çox ölkənin maraqlarını müdafiə edən və qurumu beynəlxalq münasibətlərin mühüm aktoru kimi yenidən formalaşdıran Azərbaycan eyni idarəçilik modelini D-8-ə də tətbiq edir. Yaxın Şərqdə sabitliyin təmin olunması, regional təhlükəsizlik və nəqliyyat-logistika dəhlizlərinin inkişafı sahəsində ölkəmizin nümayiş etdirdiyi qətiyyət bu missiyanın tərkib hissəsidir.

Azərbaycanın D-8 təşkilatındakı fəaliyyəti təkcə iqtisadi əlaqələrin genişlənməsi deyil, həm də islam həmrəyliyinin praktiki müstəviyə keçməsidir. Tarixi Şərq-Qərb körpüsü rolunu müasir innovasiyalar və siyasi iradə ilə birləşdirən Bakı D-8-in təməl prinsiplərinin qorunmasında və üzv dövlətlər arasında rifahın artırılmasında əsas hərəkətverici qüvvəyə çevrilib. Bu əməkdaşlıq formatı regional sülhün və qlobal iqtisadi inteqrasiyanın möhkəmlənməsinə xidmət edən yeni bir nümunədir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# WUF13-də Strateji Ekoloji Qiymətləndirmənin şəhərsalma planlaşdırmasında rolu müzakirə olunub

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının (BMT) Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) birgə təşkilatçılığı ilə "Strateji Ekoloji Qiymətləndirmə şəhərsalma planlaşdırmasında iqlim hədəflərinə nail olmaq üçün vasitə kimi" mövzusunda tədbir keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdə ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibinin müavini Dmitri Mariyasin, iqtisadiyyat nazirinin müşaviri Hüseyn Hüseynov, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Maimuna Mohd Şərif, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Qlobal Həllər Bölməsinin direktoru Rafael Tuts çıxış ediblər. Panel müzakirələrində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Türkiyə Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi, Sloveniya Ətraf Mühit, İqlim və Enerji Nazirliyi, Niderland Ekoloji Qiymətləndirmə Komissiyasının (hibrid) nümayəndələri və ETSN yanında İctimai Şuranın üzvləri iştirak ediblər.

# Forum çərçivəsində panel sessiya keçirilib

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Gələcək üçün binalar - rəqəmsal innovasiya vasitəsilə iqlim-mənzil əlaqəsinin inkişafı" mövzusunda panel sessiya keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə dayanıqlı şəhər inkişafı, rəqəmsal texnologiyaların şəhərsalma və mənzil sektorunda tətbiqi, "ağıllı şəhər" idarəçiliyi, "yaşıl" və aşağıkarbonlu binalar, süni intellektəsaslı şəhər həlləri, inklüziv urbanizasiya modelləri və rəqəmsal idarəetmə məsələləri müzakirə olunub. Sessiyada UN-Habitatın Asiya və Sakit okean regionu üzrə regional ofisinin insan məskunlaşmaları üzrə mütəxəssisi Roi Çiti, UN-Habitatın Çin Ofisinin baş müşaviri Canq Çjenşan, Tonci Universitetinin vitse-prezidenti Li Syanin və UNITAC-ın rəhbəri, proqram idarəçiliyi üzrə baş mütəxəssis Alina Matta çıxış ediblər. Tədbir çərçivəsində "ağıllı bina" texnologiyaları, rəqəmsal xəritələşdirmə sistemləri, şəhər məlumat platformaları və insan mərkəzli "ağıllı şəhər" layihələri təqdim edilib.

# WUF13 çərçivəsində böhran və münaqişə şəraitində mənzil hüquqları və yenidənqurma çağırışlarından danışılıb

Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində keçirilən "Yenidənqurma kontekstində mənzil hüquqları - humanitar yardım və bərpa arasında körpü" adlı sessiyada böhran və münaqişə şəraitində mənzil hüquqları, köçkünlük, şəhər toxumasının dəyişməsi və yenidənqurma prosesləri ilə bağlı aktual məsələlər müzakirə edilib.




AZƏRTAC xəbər verir ki, sessiyada beynəlxalq ekspertlər və təşkilat nümayəndələri çıxış edərək mövcud çağırışlar və həll yanaşmaları barədə fikirlər səsləndiriblər.

Bildirilib ki, münaqişələr nəticəsində yaşayış evlərinin və şəhər infrastrukturunun məqsədli şəkildə dağıdılması beynəlxalq hüquq normalarına zidd olsa da, bir çox hallarda bu proseslər davam edir və hüquqi öhdəliklərlə real vəziyyət arasında ciddi fərqlər yaranır.

Qeyd olunub ki, dağıntılar əhalinin təhlükəsizliyi, sağlamlığı, dolanışıq imkanları və əsas xidmətlərə çıxışına ciddi təsir göstərir.

Sessiyada çıxış edən Norveç Qaçqınlar Şurasının (NRC) Qlobal Sığınacaq və Məskunlaşma üzrə müşaviri Lana Barreto bildirib ki, qeyri-rəsmi məskunlaşmalar və şəhər toxumasının deformasiyası şəhərlərin strukturuna təsir göstərir və bu səbəbdən mənzil məsələsinə təkbaşına yanaşma deyil, mənzil, torpaq və mülkiyyət (HLP) hüquqlarını əhatə edən inteqrasiya olunmuş yanaşma zəruri hesab edilir. O, köçkünlüyün şəhər mühitini dəyişdirdiyini, dağılan evlərin və ictimai binaların çox vaxt müvəqqəti məskunlaşma məkanlarına çevrildiyini və bunun dayanıqsız şəhər formaları yaratdığını vurğulayıb.

Sessiyada çıxış edən "Habitat for Humanity International" təşkilatının Mənzil, Fəlakətlərə Dayanıqlılıq və Bərpa üzrə Sahə Əməliyyatları direktoru Mario Flores qeyd edib ki, böhran və fəlakətlər zamanı mənzil sahəsində təmin edilən təhlükəsizlik mexanizmləri ailələrin yenidənqurma mərhələsində təkrar köçürülməsinin qarşısını almaqda mühüm rol oynayır. Onun sözlərinə görə, "geri qayıdış hüququ"nun tanınması və təhlükəsiz məskunlaşmanın qorunması vacibdir. O əlavə edib ki, bir çox hallarda formal mülkiyyət sənədi olmadan da insanların əvvəlki təhlükəsiz məskunlaşma hüququ tanına və bərpa prosesində qoruna bilər.

Digər çıxışçı BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Ukrayna üzrə Ölkə Proqramının Baş direktor müavini Mariana Lessa Voita bildirib ki, Ukraynada genişmiqyaslı məcburi köç və mənzil fondunun zədələnməsi şəhər sisteminə ciddi təsir göstərir. Onun sözlərinə görə, hazırda milyonlarla insan həm ölkə daxilində, həm də xaricində məcburi köç vəziyyətində yaşayır. O, həmçinin vurğulayıb ki, Ukraynada mənzil fondunun təxminən 14 faizi zədələnib və bu, xüsusilə Xarkov kimi şəhərlərdə ciddi mənzil çatışmazlığı yaradır.

Sessiyada çıxış edən London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin (LSE) Coğrafiya və Ətraf Mühit üzrə elmi əməkdaşı Deen Sharp münaqişə zonalarında dağıntıların miqyasının görünməmiş səviyyəyə çatdığını bildirib. O qeyd edib ki, dağıntıların təmizlənməsi uzunmüddətli prosesdir və bu, yenidənqurma fəaliyyətlərini ciddi şəkildə ləngidir. Onun sözlərinə görə, mövcud şəraitdə bir çox regionlar üçün real yenidənqurma planlarından danışmaq çətindir və bərpa prosesləri xətti xarakter daşımır.

Sonda vurğulanıb ki, yenidənqurma prosesləri humanitar yardım, inkişaf və şəhərsalma yanaşmalarının inteqrasiyasını tələb edir və dayanıqlı bərpa üçün hüquqlara əsaslanan yanaşma mühüm əhəmiyyət daşıyır.

# Qlobal rəqəmsal sazişin şəhər səviyyəsində lokallaşdırılmasına dair müzakirələr aparılıb




BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) sonuncu günündə qlobal rəqəmsal sazişin şəhər səviyyəsində lokallaşdırılması mövzusunda müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, Birləşmiş Millətlər Təşkilatının Rəqəmsal və İnkişaf Etməkdə olan Texnologiyalar Ofisinin (UNODET) təşkilatçılığı ilə keçirilən "Qlobal rəqəmsal sazişin şəhər səviyyəsində lokallaşdırılması" mövzusundakı sessiya BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) nümayəndələri, şəhər səviyyəsində çalışan mütəxəssisləri, qlobal tərəfdaşları və beynəlxalq ekspertləri bir araya gətirib.

Çox canlı və fəal davamlı urbanizasiya modeli olan Bakıda olmaqdan qürur duyduğunu deyən BMT-nin Məskunlaşma Proqramının Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Erfan Ali bildirib: "Qlobal rəqəmsal ambisiyaları şəhərlərimizin gündəlik reallığında necə mənalı edə bilərik? Qlobal rəqəmsal saziş bizə mühüm ortaq istinad nöqtəsi təqdim edir. O, inklüziv, təhlükəsiz və insan mərkəzli rəqəmsal transformasiya üçün ümumi bir baxış ortaya qoyur. Amma hamımız bilirik ki, əsas sınaq tətbiq mərhələsində olacaq. Bizdə çoxlu öhdəliklər, çoxlu vədlər var. Lakin ən böyük çətinlik həmin vədləri həyata keçirməli olduğumuz zaman ortaya çıxır. Bu proses konfranslarda, dialoqlarda və ya böyük tədbirlərdə deyil, şəhərlərimizin xidmətləri necə təqdim etməsində, məlumatları necə idarə etməsində, çıxışı necə genişləndirməsində və insanların ehtiyaclarına necə cavab verməsində özünü göstərəcək".

Sessiya çərçivəsində panel müzakirələrdə Qananın Yerli İdarəetmə Nazirliyinin yerli idarəetmə və desentralizasiya üzrə direktoru Samuel Set Passah, Şəhər və Region Planlama Beynəlxalq Cəmiyyətinin (ISOCARP) elmi komitəsinin sədri Larissa Meneskal, "Mashreq Bank"ın nümayəndəsi Faysal Al Şimmari, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) şəhər inkişafı üzrə eksperti Anette Luts 2024-cü ildə BMT-yə üzv dövlətlər tərəfindən qəbul olunan Qlobal rəqəmsal sazişin rəqəmsal inklüzivlik, təhlükəsizlik, məlumat idarəçiliyi və süni intellekt sahələrində iddialı qlobal öhdəlikləri müəyyən etdiyini bildiriblər. Qeyd olunub ki, bu öhdəliklərin böyük hissəsi şəhər səviyyəsində həyata keçiriləcək. Çünki rəqəmsal infrastruktur, xidmətlərin göstərilməsi, məlumatlardan istifadə və ictimai iştirak məhz şəhərlərdə bir araya gəlir.

Eyni zamanda mənzil siyasəti, xidmətlərin göstərilməsi, inklüzivlik və dayanıqlılıq kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb. Sessiyada qlobal öhdəlikləri yerli və insan mərkəzli rəqəmsal strategiyalara çevirən konkret şəhər təcrübələri və idarəetmə yanaşmaları nümayiş etdirilib.

Sessiyanın məqsədi Qlobal rəqəmsal sazişin prinsipləri və öhdəliklərinin şəhər səviyyəsində necə şərh və tətbiq oluna biləcəyini göstərərək qlobal və yerli fəaliyyət arasında körpü yaratmaq, rəqəmsal uçurumun aradan qaldırılması, inklüziv xidmətlərin göstərilməsi və insan mərkəzli rəqəmsal transformasiya üzrə şəhər nümunələrini təqdim etmək, təcrübə mübadiləsi və tətbiq oluna bilən yanaşmalar vasitəsilə şəhərlər və digər tərəfdaşlar arasında qarşılıqlı öyrənmə və əməkdaşlığı gücləndirmək, şəhərləri "Yeni Şəhər Gündəliyi"nə uyğun təhlükəsiz, inklüziv və dayanıqlı rəqəmsal gələcəyin formalaşdırılmasında əsas aktor kimi ön plana çıxarmaq olub.

Qeyd edək ki, UNODET daha yaxşı gələcək üçün qlobal texnologiya əməkdaşlığının inkişafı, milli prioritetlərə və kontekstlərə hörmət edən inklüziv, hüquqlara əsaslanan və çoxtərəfli rəqəmsal əməkdaşlığı inkişaf etdirmək üçün 2025-ci il yanvarın 1-də BMT Baş Assambleyası tərəfindən yaradılıb. Ofis həmçinin rəqəmsal məsələlər üzrə Birləşmiş Millətlər Təşkilatının sistem miqyasında mərkəz nöqtəsi kimi xidmət edir.

# "Qlobal Cənubda məhsuldar tərəfdaşlıqları təşviq edən inşaatçılar koalisiyası" mövzusunda sessiya

Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Afrika Mənzil Maliyyələşdirmə Birliyinin təşkilatçılığı ilə Qlobal Cənubda məhsuldar tərəfdaşlıqları təşviq edən inşaatçılar koalisiyası və CAHF Mənzil Maliyyələşdirilməsi 2025/2026 nəşrinin ilkin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə mənzil sektorunda dövlət qurumları, özəl şirkətlər, maliyyə institutları, investorlar, beynəlxalq təşkilatlar və icmalar arasında davamlı əməkdaşlıq mexanizmlərinin formalaşdırılması məsələləri müzakirə olunub.

Sessiyada çıxış edən Nigeriyanın "Family Homes Funds Limited" şirkətinin idarəedici direktoru və baş icraçı direktorunun texniki müşaviri Ahmed Baba bildirib ki, UN-Habitatın 2026-cı ilə olan məlumatlarına görə, dünyada qeyri-qənaətbəxş mənzil şəraitində yaşayan insanların sayı təxminən 3,4 milyard nəfərə çatıb. Bu göstəricinin 70 faizdən çoxunu isə Qlobal Cənub ölkələri təşkil edir.

O bildirib ki, əvvəllər problemin əsas hissəsi daha çox Şərq regionlarında müşahidə olunsa da, Yaxın Şərqdə baş verən son böhranlar vəziyyətə ciddi təsir göstərib.

"Qeyri-qənaətbəxş mənzil şəraitində yaşayan əhalinin böyük əksəriyyəti Afrika qitəsinin payına düşür. Sürətli urbanizasiya, maliyyə resurslarının məhdudluğu və əlçatan mənzil siyasətinin zəifliyi Qlobal Cənub ölkələrində mənzil problemini daha da dərinləşdirir", - deyə o əlavə edib.

O qeyd edib ki, mütəxəssislərin qiymətləndirməsinə əsasən, bu göstərici 100 milyondan çox insanın mənzil problemi ilə üzləşməsi deməkdir. "Bu rəqəmin Cənubi Afrika və Qananın ümumi əhalisinə bərabər olduğu vurğulanıb. Bildirilib ki, Nigeriyada ipoteka kreditlərinin ÜDM-ə nisbəti 1 faizdən də azdır. Mənzil maliyyələşdirilməsi üzrə faiz dərəcələri isə 20-32 faiz arasında dəyişir ki, bu da vətəndaşların əlçatan mənzil əldə etməsini çətinləşdirir.

Mütəxəssislər qeyd ediblər ki, mövcud maliyyə çatışmazlığı mənzil sektorunun bütün dəyər zəncirinə təsir göstərir. Bu səbəbdən risklərin düzgün idarə olunmasına və maliyyə mexanizmlərinin daha dəqiq qurulmasına əsaslanan yeni maliyyə arxitekturasının formalaşdırılması vacib hesab olunur", - deyə o əlavə edib.

Cənubi Afrikada "Moladi Development" şirkətinin idarəedici direktoru Hennie Botes çıxışında bildirib ki, hazırda Cənubi Afrikada işsizlik 62-65 milyon əhali arasında təxminən 16 milyon nəfər səviyyəsində qiymətləndirilir, eyni zamanda təxminən 3 milyon yeni mənzilə ehtiyac var.

Onun sözlərinə görə, rəqəmlərin təhlili göstərir ki, mövcud dövlət mənzil tikinti proqramları ildə təxminən 24 min evin inşasını nəzərdə tutur.

"Bu tempdə 3 milyon mənzil ehtiyacının ödənilməsi təxminən 125 il vaxt tələb edəcək ki, bu da problemin miqyasını daha aydın ortaya qoyur.

Mütəxəssislər hesab edirlər ki, işsizlik və mənzil çatışmazlığı ayrı-ayrı deyil, bir-biri ilə əlaqəli problemlərdir və onların həlli üçün kompleks yanaşma tələb olunur. Eyni zamanda kənd ərazilərinin inkişafına daha çox diqqət yetirilməsinin şəhərlərə miqrasiyanı azalda biləcəyi və urbanizasiyanı balanslaşdıracağı vurğulanır", - deyə o əlavə edib.

Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) Gender və İqtisadi İnklüzivlik üzrə baş mütəxəssisi (Principal) Pawel Krasny vurğulayıb ki, mənzil və əlçatan yaşayış məsələlərində mürəkkəb maliyyə alətləri və müxtəlif sosial qrupların prosesə cəlb olunması mühüm əhəmiyyət daşıyır.

Onun sözlərinə görə, əsas məqsəd daha səmərəli nəticələr əldə etməkdir və bunun üçün bütün tərəflərin ortaq maraqlar ətrafında birləşməsi vacibdir.

"Layihələrin hazırlanması və ekosistem müzakirələri bir-biri ilə əlaqəlidir və bu sahədə müzakirələrin düzgün idarə olunması və ekosistemin gücləndirilməsi miqyaslı nəticələr üçün əsas şərtdir", - deyə o bildirib.

Tədbirdə həmçinin beynəlxalq və regional qurumlar, maliyyə və daşınmaz əmlak şəbəkələri, yerli idarəetmə strukturları və inkişaf tərəfdaşları arasında uzunmüddətli dialoqun qurulması, WUF13 kimi qlobal platformaların real və yerli nəticələrə çevrilməsi yolları ətrafında fikir mübadiləsi aparılıb.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM




# Azərbaycandan şəhərsalma üzrə dünyaya dayanıqlı inkişaf mesajı

## İlham ƏLİYEV: "Biz inkişafda, insanlarımız üçün daha yaxşı şəraitin yaradılmasında, müasirləşmədə cəsur olmalıyıq"

**Danılmaz faktdır ki, Azərbaycan indiyə kimi xeyli beynəlxalq tədbirə evsahibliyi edərək böyük yol keçib. Daha əvvəl Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresi, Qoşulmama Hərəkatının iclası, Humanitar Forumlar, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası ( COP 29) və digər tədbirlər bu sahədə ona beynəlxalq təcrübə qazandırıb.**

Bu qəbildən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) Bakıda keçirilməsi də Azərbaycanın qlobal əhəmiyyətli tədbirlərin təşkili və yüksək səviyyədə təqdim olunmasından dolayı imkanlarını bir daha nümayiş etdirdi. WUF13-ün Bakıda gerçəkləşməsi ölkənin dayanıqlı şəhərsalma, "yaşıl inkişaf", müasir infrastruktur və innovativ idarəetmədə həyata keçirdiyi siyasətə beynəlxalq marağın artdığını göstərdi. Təsadüfi deyil ki, tədbirin açılış mərasimində çıxış edən Prezident İlham Əliyev məhz bu amili vurğuladı: "Mən bu tədbirin təşkilinə verilən dəstəyə, əməkdaşlığa və Forumun 13-cü Sessiyasına evsahibliyi etmək üçün bu cür çox məsuliyyətli vəzifənin bizə həvalə edildiyinə görə təşəkkürümü bildirmək istəyirəm. 2022-ci ildən etibarən biz BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycanda, uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumlarını keçirmişik".

Maraqlıdır ki, WUF13 çərçivəsində müzakirə olunan dayanıqlı şəhərsalma, müasir infrastrukturun qurulması, "yaşıl texnologiya"ların tətbiqi və təhlükəsiz yaşayış mühitinin formalaşdırılması məsələləri Azərbaycanın həyata keçirdiyi Böyük qayıdış proqramı ilə üst-üstə düşüb. İşğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri müasir şəhərsalma prinsiplərinə uyğun həyata keçirilir. Bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, ekoloji tarazlığın qorunması, "yaşıl enerji" mənbələrindən istifadə və dayanıqlı infrastrukturun qurulması Azərbaycanın həmin istiqamətdə beynəlxalq təcrübəyə əsaslanan yanaşmasının göstəricisidir.

Tədbiri Böyük qayıdış prosesinin beynəlxalq ictimaiyyətə daha geniş təqdim olunması baxımından mühüm platforma kimi də qiymətləndirmək olar. Sessiya iştirakçıları azad olunmuş ərazilərdə həyata keçirilən yenidənqurma layihələri, müasir yaşayış məntəqələrinin salınması və regionun sosial-iqtisadi dirçəlişi ilə bağlı aparılan işlər barədə ətraflı məlumat əldə etmək imkanı qazandılar. Bu da Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra dayanıqlı inkişaf modelini uğurla tətbiq etdiyini və həmin əraziləri regionun ən müasir yaşayış və iqtisadi məkanlarından birinə çevirməyi hədəflədiyini sərgiləyir.

13-cü sessiyanın açılışında çıxış edən Prezidenti İlham Əliyev həmin məqamlara xüsusi toxunaraq, Qarabağ və Şərqi Zənəzurda genişmiqyaslı bərpa - quruculuq işlərinin həyata keçirildiyini diqqətə çatdırdı. Dövlət başçısı bildirdi ki, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı dövlət siyasətinin əsas prioritetlərindəndir: "Hazırda Böyük qayıdış proqramı həyata keçirilir, şəhər və kəndlərin baş planları hazırlanır. Mən, əlbəttə ki, çox rəqəm gətirə bilərəm, lakin yalnız ikisini qeyd edim. Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub".

Onu da qeyd edək ki, WUF13 Prezident İlham Əliyevin postmünaqişə gündəliyini təqdim etmək üçün geniş platforma oldu. Bu tədbir Azərbaycanın müharibədən sonrakı bərpa və inkişaf strategiyasını dünya ictimaiyyətinə nümayiş etdirməyə imkan verdi. Dövlət başçımızın təşəbbüsü ilə Azərbaycan nümunəsi sülh və tərəqqi prosesində şəhərsalmanın rolunu ön plana çıxardı və regionda infrastruktur layihələrinin strateji əhəmiyyətini nümayiş etdirdi. WUF13 həm beynəlxalq, həm də regional əməkdaşlığın gücləndirilməsi, investisiyaların təşviqi və innovativ şəhərsalma həllərinin müzakirəsi baxımından mühüm platforma rolunu oynadı. Forumu Azərbaycanın müharibədən sonrakı inkişaf strategiyasını dünya ictimaiyyətinə çatdırmaq və ölkənin liderlik nüfuzunu daha da gücləndirmək baxımından önəmli bir tədbir kimi qiymətləndirmək doğru olar.

WUF13 qlobal problemlərlə bağlı açıq dialoqun aparıldığı əməkdaşlıq məkanı kimi də diqqət çəkdi. Forum hər keçən gün fərqli baxışların və təcrübələrin paylaşılması üçün təhlükəsiz və konstruktiv mühit formalaşdırdı. İştirakçılar dayanıqlı şəhərlərin qurulması, insan yönümlü urbanizasiya siyasəti, rəqəmsal texnologiyaların tətbiqi və "yaşıl inkişaf" modelləri ilə bağlı fikir mübadiləsi apardılar.

Desək ki, tarixinin ən böyük WUF-u Bakı WUF-udur, qətiyyən səhv etmərik. Çünki o təkcə şəhərsalma və urbanizasiya sahəsində müzakirələrin aparıldığı bir platforma olmaqla kifayətlənmədi, bərpa strategiyalarının, innovativ infrastruktur mexanizmlərinin və dayanıqlı inkişaf modellərinin dünya ictimaiyyətinə təqdim olunduğu unikal bir məkan rolunu oynadı. Üstəlik, qlobal həmrəylik, investisiya və əməkdaşlıq imkanlarının təşviqi baxımından ölkəmizin nüfuzunu bir qədər də gücləndirərək, Azərbaycanın sülh, tərəqqi və urbanizasiya sahəsindəki liderliyini nümayiş etdirdi.

Bu qlobal tədbir müxtəlif siyasi və coğrafi məkanlardan olan iştirakçıların qarşılıqlı etimad şəraitində bir araya gəlməsinə də imkan yaradıb. WUF13-ün təhlükəsiz və yüksək səviyyədə təşkili Azərbaycanın beynəlxalq tədbirlərin keçirilməsi sahəsində formalaşdırdığı təcrübəni bir daha nümayiş etdirdi. Dünyanın müxtəlif yerlərindən gəlmiş nümayəndələr üçün açıq olan dialoq mühiti qlobal problemlərin birgə həlli istiqamətində əməkdaşlığın gücləndirilməsinə, yeni tərəfdaşlıqların qurulmasına və ortaq təşəbbüslərin formalaşmasına şərait yaratdı. Unutmaq olmaz ki, dünya Prezident İlham Əliyevin şəhərsalma sahəsində uzaqgörən liderliyini alqışladı. Onun təşəbbüsü ilə ilk dəfə keçirilmiş liderlər sessiyası şəhərsalma üzrə müzakirələri qlobal müstəviyə çıxararaq, onun siyasi çəkisini artırdı.

Qlobal forum göstərdi ki, müasir dövrdə şəhərsalma yalnız infrastruktur məsələsi deyil, eyni zamanda sosial rifah, təhlükəsizlik, ekoloji tarazlıq və iqtisadi inkişafla birbaşa bağlı olan strateji istiqamətdir. Bu baxımdan forum qlobal problemlərin müzakirə edildiyi, ortaq həll yollarının axtarıldığı və beynəlxalq həmrəyliyin təşviq olunduğu mühüm platforma kimi ön planda oldu.

WUF13-ün Bakıda dünən son iş günü idi. Ötən bir həftə ərzində dünyanın müxtəlif ölkələrindən olan nümayəndələr, ekspertlər və rəsmi şəxslər bir araya gələrək müxtəlif təcrübələri bölüşdülər və qlobal çağırışların həlli istiqamətində mühüm fikir mübadiləsi apardılar. Bakı mühüm beynəlxalq məsələlərin müzakirəsi və qlobal həmrəyliyin təşviqi üçün əhəmiyyətli məkan olduğunu sübut etdi. Forum həmçinin azad edilmiş ərazilərdə aparılan quruculuq işlərinin beynəlxalq ictimaiyyət üçün nümunə olduğunu nümayiş etdirdi.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# BŞİH-də xarici ölkələrin nümayəndə heyətləri ilə görüşlər keçirilib

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında (WUF13) iştirak etmək üçün Bakı şəhərinə müxtəlif ölkələrdən - Suriyanın Dəməşq, Qazaxıstan Respublikasının Astana, Ruandanın Kiqali, Vyana Əyalət Parlamenti, Estoniyanın paytaxtı Tallinn, Niderlandın Haaqa, Efiopiyanın paytaxtı Əddis-Əbəbə, Moldovanın paytaxtı Kişineu, Tanzaniyanın Dar-əs-Salam və BƏƏ-nin Dubay şəhərlərindən gəlmiş nümayəndə heyətləri ilə Bakı Şəhər İcra Hakimiyyətində görüşlər keçirilib.



Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən qəzetimizə verilən məlumata görə, BƏƏ nümayəndə heyətinə ərəb dilində nəşr olunan "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabı təqdim edilib. Qeyd olunub ki, Dubay təcrübəsi sübut etdi ki, müsəlmanlar istədikdə sıfırdan ultra müasir şəhər yarada bilərlər. Azərbaycan isə öz növbəsində müsəlmanların işğal altında olan torpaqlarını geri almağa qadir olduqlarını göstərdi. "Bütün bunlara görə biz cənab Prezident İlham Əliyevə minnətdarıq. O, Azərbaycan tarixinin parlaq şəxsiyyətidir", - deyə Eldar Əzizov bildirib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov görüşlərdə vurğulayıb ki, bugünkü paytaxtımız dövlət başçısı cənab İlham Əliyevin əsəridir və daim onun diqqət və qayğısı ilə əhatə olunur. Bundan əlavə, o, ölkə rəhbərliyinin tapşırıq və tövsiyələri əsasında şəhərdə aparılan genişmiqyaslı abadlıq, quruculuq və yaşıllaşdırma işləri barədə də qonaqlara ətraflı məlumat verib.

Xarici qonaqlar Bakı şəhərinin gözəlliyi, təmizliyi və həyata keçirilən yaşıllaşdırma işlərindən heyranlıqla danışıb, paytaxtın gecə işıqlandırılmasını xüsusi vurğulayaraq şəhərin çoxsaylı park və ictimai məkanlarının gözəlliklərini qeyd ediblər. Onlar, həmçinin Bakının şəhərsalma təcrübəsini öyrənərək öz ölkələrində tətbiq edəcəklərini bildiriblər.

Keçirilən görüşlərdə qonaqlara 11 dildə çap olunmuş Bakı Şəhər İcra Hakimiyyəti və AMEA Tarix İnstitutunun birgə layihəsi olan "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabı təqdim edilib.

*"Azərbaycan"*

# Dayanıqlı inkişaf məqsədlərindən mənzillərə

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində mayın 22-də Bakıda Beynəlxalq Memarlar İttifaqının (UIA) təşkilatçılığı ilə "Dayanıqlı inkişaf məqsədlərindən mənzillərə" adlı panel sessiya keçirilib.




AZƏRTAC xəbər verir ki, Portuqaldilli Ölkələrin Beynəlxalq Memarlar Şurasının (CIALP) prezidenti, memarlıq üzrə fəlsəfə doktoru Rui Leaonun moderatorluğu ilə keçirilən paneldə qlobal urbanizasiya meyilləri, şəhərsalmanın planlaşdırılması və hər kəs üçün əlçatan mənzil təminatı məsələləri müzakirə edilib.

Sessiyada çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Şəhər Yenilənməsi və İctimai Məkan üzrə rəhbəri Xose Çonq, İspaniyanın Kataloniya Hökumətinin Ərazi, mənzil və ekoloji keçid departamentinin şəhərsalma və memarlıq üzrə baş direktoru Elisabet Cirici Amiell və Anqola Memarlar Ordeninin prezidenti Vity Nsalambi Dayanıqlı İnkişaf Məqsədlərinin (SDG) yerli və qlobal səviyyədə icrası vəziyyətinə toxunublar.

Natiqlər rəhbərlik etdikləri qurumların SD-yə yanaşma strategiyalarından bəhs edərək, bu hədəflərin urbanizasiya prosesinin, müasir şəhər mədəniyyətinin və memarlıq anlayışının ayrılmaz bir hissəsinə necə çevrilməsi barədə təcrübələrini bölüşüblər. Vurğulanıb ki, hazırda mənzil təminatına əlçatanlıq fundamental insan hüququdur və bu sahədəki çatışmazlıqların aradan qaldırılması müasir dünyanın ən ciddi çağırışlarından biridir.

Çıxışlarda SDG-lərlə bağlı qarşılaşılan əsas çətinliyin bu hədəflərin mahiyyətinin düzgün dərk edilməsi, həmçinin müxtəlif maraqlı tərəflər tərəfindən praktikada, şəhərsalma alətlərində və digər sahələrdə effektiv şəkildə tətbiq olunması ilə bağlı olduğu qeyd edilib. Bildirilib ki, memarların həm dövlət siyasəti, həm də özəl praktika çərçivəsində görə biləcəyi işlər dayanıqlı inkişaf hədəflərinin reallaşdırılmasında müstəsna əhəmiyyətə malikdir.

Sessiya zamanı, həmçinin UIA tərəfindən hazırlanan və gələn ay Barselonada keçirilməsi planlaşdırılan Ümumdünya Memarlar Konqresindən də bəhs edilib. Qeyd olunub ki, növbəti konqres qlobal mənzil böhranı və dayanıqlı şəhər mühitinin formalaşdırılması istiqamətində memarların fəaliyyət proqramının geniş müzakirəsi üçün mühüm platforma rolunu oynayacaq.

# Greg MUNRO: "Bakı tarixi irsin qorunması ilə müasir şəhər inkişafını uğurla birləşdirir"

**Ümumdünya Şəhərsalma Forumunun (WUF13) əsas gözləntilərindən biri qeyri-formal yaşayış məntəqələri və mənzil məsələləri ilə bağlı konkret icra mexanizmlərinin formalaşdırılmasıdır.**

Bunu AZƏRTAC-a açıqlamasında BMT platformasında fəaliyyət göstərən "Cities Alliance" təşkilatının direktoru Greg Munro bildirib.

Onun sözlərinə görə, müzakirələrlə kifayətlənmək olmaz.

"Qeyri-formal yaşayış məntəqələrinin yaxşılaşdırılması, mənzil təminatı və şəhər mühitinin inkişafı istiqamətində real addımlar atılmalıdır. Ümid edirik ki, WUF13 bu istiqamətdə konkret öhdəliklərin qəbuluna təkan verəcək", - deyə Greg Munro əlavə edib.

27 ildən artıqdır ki, müxtəlif ölkələrdə qeyri-formal yaşayış məntəqələri ilə bağlı layihələr həyata keçirdiklərini bildirən təşkilat rəhbəri WUF13-ün onun üçün son WUF tədbiri olduğunu, yaxın zamanda təqaüdə çıxacağını da qeyd edib. O, forumun təşkilini yüksək qiymətləndirərək könüllülərin fəaliyyətini xüsusi vurğulayıb: "Haraya üz tutursansa, yardım




etməyə hazır könüllülərlə qarşılaşırsan. Şəhər sərgisi də indiyədək gördüklərimin ən yaxşılarından biridir".

Greg Munro Bakının şəhərsalma baxımından maraqlı nümunə olduğunu bildirib. Onun sözlərinə görə, şəhərdə tarixi irsin qorunması ilə müasir urbanizasiya arasında balans uğurla təmin olunub.

"Bakıda həm qədim şəhər mühiti, həm də müasir infrastruktur mövcuddur. İçərişəhərin UNESCO irsi kimi qorunub saxlanılması çox təsirlidir. Eyni zamanda şəhərin müasir hissəsində yüksək binalar, inkişaf etmiş nəqliyyat sistemi və keyfiyyətli infrastruktur diqqət çəkir", - deyə o qeyd edib.

"Cities Alliance" rəhbəri Bakı metrosundan istifadə etdiyini və ictimai nəqliyyat sistemini rahat və əlçatan hesab etdiyini bildirib.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında gender bərabərliyinin təşviqinə həsr olunan tədbir təşkil olunub

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) "İş yerlərində gender bərabərliyinin təşviqi" mövzusunda tədbir təşkil olunub.








Tədbirdə mərkəzi icra hakimiyyəti orqanlarının nümayəndələri, AHİK-in və Beynəlxalq Əmək Təşkilatının (BƏT) İşçilərin fəaliyyəti üzrə bürosunun (ACTRAV) təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən AHİK sədrinin müavini Musa Mirzəyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin demokratik inkişafından, insan hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunmasından bəhs edib. O, Azərbaycanda gender bərabərliyinin təşviqi və qadınların cəmiyyətdə rolunun gücləndirilməsi istiqamətində görülən işləri diqqətə çatdırıb, Azərbaycan qadınının ictimai nüfuzunun yüksəldilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi xidmətlərini vurğulayıb.

Bildirilib ki, konfederasiya gender məsələlərinin təşviqinə xüsusi həssaslıqla yanaşır, əmək kollektivlərində bərabər imkanların yaradılması və qadınların əmək bazarında fəal iştirakının dəstəklənməsi ilə bağlı önəmli addımlar atır, qadınların sosial təminatının gücləndirilməsi, təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi diqqətdə saxlanılır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Ceyran Rəhmətullayeva, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəis müavini Nərmin Mirzəyeva, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyinin sədri Hikmət Nəbiyev və Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Mehman İsmayılov, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru vəzifələrini icra edən Fərid Babayev çıxışlarında gender siyasətindən bəhs edib, qadınların sosial-iqtisadi həyatın bütün sahələrində fəal iştirakı üçün yaradılan imkanları diqqətə çatdırıblar.

Tədbirə onlayn formatda qoşulan BƏT-in gender məsələləri üzrə mütəxəssisi Özgə Bərbər Agtaş çıxışında gender bərabərliyinin inklüziv və dayanıqlı əmək münasibətlərinin formalaşmasındakı əhəmiyyətini vurğulayıb, Azərbaycanda bu sahədə görülən işlərə diqqət çəkib.

Tədbirin yekununda "Gender bərabərliyi: ailə, əmək bazarı və milli inkişafın strateji gündəliyi" mövzusunda təqdimat edilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

*Nərminə ƏSGƏROVA, "Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Qətiyyətin zəfəri

## Qalib lider İlham Əliyevin bir tələbi ilə Qazaxın Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri iki il əvvəl azad edildi

**Mayın 24-də Azərbaycanın müasir dövlətçilik salnaməsinə strateji iradənin təntənəsi kimi həkk olunmuş mühüm bir hadisədən - Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin azadlığa qovuşmasından iki il ötür. 2024-cü ilin sözügedən tarixində Müzəffər Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi və diplomatik təzyiqi nəticəsində bu ərazilər bir güllə atılmadan, şəhid verilmədən düşmən tapdağından xilas edildi. Bu dörd kəndimizdə də suverenliyimiz təmin edildi, bayrağımız dalğalandırıldı.**



Necə ki, 44 günlük Vətən müharibəsinin sonunda imzalanan kapitulyasiya aktı ilə Ağdam, Kəlbəcər və Laçın qan tökülmədən geri qaytarılmışdı, Qazaxın kəndləri məsələsində də eyni ssenari təkrarlandı. Tarix salnaməmizə qızıl hərflərlə yazılan bu mühüm hadisə sadəcə ərazi bütövlüyü məsələsi deyil, dövlətimizin sarsılmaz iradəsinin dünya miqyasında təsdiqi və diplomatik masada "dəmir yumruq" effekti oldu.

Prezident İlham Əliyevin 10 may 2024-cü ildə Şuşada verdiyi bəyanat bu qələbənin fəlsəfəsini tam açır: "Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar".

### Addım-addım bütövlüyə doğru

Azərbaycanın ərazi bütövlüyünün bərpası təsadüfi uğur yox, hər mərhələsi zərgər dəqiqliyi ilə hesablanmış strateji gedişlərin vəhdətidir.

Məqsədyönlü fəaliyyəti ilə Azərbaycanı dünyanın nüfuzlu ölkəsinə çevirən Prezident İlham Əliyevin ötən müddətdə gündəlik siyasətində duran birnömrəli prioritet Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi idi. Beynəlxalq səviyyədə daim bu məsələni gündəmə gətirən ölkəmizin rəhbəri münaqişənin danışıqlar yolu ilə həllinə çalışırdı. Amma təcavüzkar Ermənistana himayədarlıq edən ölkə və qurumlar (bunların başında da münaqişənin danışıqlar yolu ilə nizamlanması üçün missiyalandırılmış ATƏT-in Minsk qrupu gəlirdi) vəziyyətin dondurulmasına və Azərbaycanın işğal faktı ilə barışmasına nail olmağa çalışırdılar. Keçmiş Qarabağ münaqişəsinin həlli mümkünsüz problem olduğu görüntüsünü yaradan riyakar Qərb təsisatları müharibə variantını istisna edirdilər.

Azərbaycan isə qətiyyən bu vəziyyətlə barışmaq niyyətində deyildi. İstər sülh, istərsə də hərb yolu ilə torpaqlarını azad etməkdə və bir milyona yaxın keçmiş məcburi köçkünümüzü öz yurdlarına qaytarmaqda israrlı və qətiyyətli mövqe sərgiləyirdi. Buna görə də ölkəmiz mümkün bütün variantlara hazırlıq aparmış, hərbi potensialını gündən-günə artırmışdı.

Xalqımızı böyük Zəfərə aparan bu strateji yol 2016-cı ilin Aprel döyüşləri ilə başladı. Həmin günlərdə ordumuzun qətiyyəti dünyaya həm səbrimizin son həddə çatdığının mesajını verdi, həm də böyük qayıdışın ilk müjdəsini gətirdi.

Bu hərbi və siyasi iradə 2020-ci ilin 44 günlük Vətən müharibəsində "dəmir yumruq" altında birləşərək xalqımızın yeni qəhrəmanlıq tarixini yazdı. Torpaqlarımız işğaldan azad edildi. Hərbi zəfəri diplomatik nailiyyətlərlə möhkəmləndirən bu proses ardıcıl və qətiyyətli addımlarla davam etdirildi. 2022-ci ilin avqustunda Laçın şəhəri, Zabux və Sus kəndlərinin azad edilməsi diplomatik təzyiqin hərbi güclə harmoniyasının növbəti təzahürü oldu.

2023-cü ilin aprelində Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması ilə dövlət sərhədlərimiz üzərində mütləq nəzarət bərpa edildi. 2023-cü ilin sentyabrında həyata keçirilən cəmi 23 saatlıq antiterror tədbirləri bölgədəki separatizmin tabutuna son mismarı vurdu.

### Tarixi ədalətin bərpası

Qələbə zəncirinin mühüm halqalarından biri məhz Qazaxın qeyri-anklav kəndlərinin delimitasiya prosesi çərçivəsində, 12,7 kilometrlik sərhəd xəttinin müəyyən edilməsi ilə geri alınması oldu.

Qazaxın dörd kəndinin qaytarılması Prezident İlham Əliyevin hələ 2020-ci ildə qaldırdığı və daim gündəlikdə saxladığı prinsipial məsələ idi.

Həmçinin 2024-cü ildə dövlətimizin başçısı yerli televiziya kanallarına müsahibəsində demişdi: "O ki qaldı işğal altında olan kəndlərə, hesab edirəm ki, bizim təklifimiz də çox məntiqlidir. Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır".

Bildirək ki, əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır və delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə oldu. Tərəflər razılaşıblar ki, delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar. Həyata keçirilən delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyənləşdirildi və bununla Azərbaycanın Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin Azərbaycana qaytarılması təmin edildi.

Beləliklə, 24 may 2024-cü ildə Azərbaycanın Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürüldü.

Prezident İlham Əliyevin anklav kəndlərlə bağlı növbəti hədəfi də bəllidir: bütün anklavlar qaytarılmalı, ora gedən yollarda şərait yaradılmalı və insanlar öz dədə-baba yurdlarına qovuşmalıdırlar.

Qazaxın kəndlərinin azad edilməsi həm də tarixi ədalətin bərpasıdır. 1990-cı ilin martında Bağanıs Ayrımda törədilən qanlı qətliam, yandırılan evlər və məsum insanların qətli xalqımızın qan yaddaşıdır. Lakin bu gün həmin torpaqlarda artıq barıt qoxusu deyil, doğma el-obanın həniri duyulur.

Bəli, ötən müddətdə həyata keçirilən qətiyyətli siyasət sübut etdi ki, Azərbaycan üçün heç bir keçilməz sədd yoxdur, yalnız milli maraqlar və polad iradə var. Bu gün Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılıda dalğalanan üçrəngli bayrağımız Azərbaycanın sarsılmaz gücünün və qalib lider İlham Əliyevin "sözümüz imzamızdır" prinsipinin ən bariz sübutudur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Günnütdən Zəfərə doğru

**2020-ci ilin payızında Azərbaycan Ordusunun yazdığı Zəfər salnaməsi bir günün, bir ayın və ya bir ilin işi deyildi. Bu möhtəşəm qələbəyə aparan yol uzun illər davam edən siyasi iradənin, məqsədli ordu quruculuğunun, xalq-iqtidar birliyinin və Azərbaycan əsgərinin sarsılmaz döyüş ruhunun nəticəsi idi.**

Tarix bu dəfə də sübut etdi ki, böyük zəfərlərin bir başlanğıcı olur. Azərbaycan Ordusunun yaratdığı dönüş nöqtələrindən biri də Günnüt əməliyyatı idi. Məhz bu əməliyyat ordumuzun gücünü, peşəkarlığını və gələcək böyük Zəfərə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi.

Təxminən 30 ilə yaxın müddətdə Ermənistan və onu dəstəkləyən dairələr Azərbaycan haqqında yanlış təsəvvür formalaşdırmağa çalışır, ordumuzun gücünü və döyüş imkanlarını kiçiltməyə cəhd edirdilər. Onlar Azərbaycan Ordusunu 1990-cı illərin ağır vəziyyətində olduğu kimi təsəvvür edir, keçmişin zəif və pərakəndə silahlı qüvvələrinin hələ də dəyişmədiyini düşünürdülər. Lakin Günnüt əməliyyatı bu düşüncəni darmadağın etdi. Azərbaycan əsgəri sübut etdi ki, artıq düşmən qarşısında yüksək döyüş hazırlığına malik, müasir silah və texnika ilə təchiz edilmiş, güclü logistik imkanları olan, peşəkar və qətiyyətli ordu dayanır. Bu əməliyyatın hərb tariximizdə həm hərbi-strateji, həm də mənəvi-psixoloji baxımdan son dərəcə mühüm əhəmiyyəti var.

Bəzən cəmi bir neçə gün davam edən hərbi əməliyyat gələcək onilliklərin taleyini müəyyənləşdirir. Günnüt əməliyyatı da məhz belə hadisələrdən biri oldu. Bu uğur yalnız bir neçə strateji yüksəkliyin və yaşayış məntəqəsinin nəzarətə götürülməsi ilə yadda qalmadı. Həmin əməliyyat, əslində, 2020-ci ilin sentyabrında başlayan və Azərbaycan xalqının tarixi Zəfəri ilə nəticələnən İkinci Qarabağ müharibəsində qələbəyə gedən yolun mühüm mərhələlərindən birinə çevrildi. Günnüt əməliyyatının əhəmiyyətindən danışarkən qeyd etməliyik ki, o gün Naxçıvan istiqamətində əldə olunan uğur həm ordumuzun döyüş ruhunu yüksəltdi, həm də düşmən tərəfə açıq mesaj verdi: Azərbaycan öz torpaqlarını azad etməyə hazırdır!

2018-ci ilin 20-27 mayında həyata keçirilən əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca mühüm strateji mövqelər ordumuzun nəzarəti altına keçdi. Əlahiddə Ümumqoşun Ordusunun müdafiə xətti daha əlverişli istiqamətlərə doğru irəli çəkildi və qarşıya qoyulan bütün tapşırıqlar qısa müddətdə icra edildi. Əldə olunan yüksəkliklər və nəzarət altına götürülən mövqelər yalnız taktiki üstünlük deyildi, eyni zamanda Ermənistan ordusuna və onun siyasi rəhbərliyinə vurulan mənəvi-psixoloji zərbə idi.

Əməliyyat zamanı Qızılqaya, Qaraqaya, Ağbulaq yüksəklikləri və Dərələyəz istiqamətində mühüm strateji nöqtələr nəzarətə götürüldü. Bu məqamda dəniz səviyyəsindən 1683 metr yüksəklikdə yerləşən Qızılqaya mövqeyinin strateji əhəmiyyətini xüsusi qeyd etməliyik. Çünki bu yüksəklik İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi magistral yolunun mühüm hissəsini vizual və taktiki nəzarətdə saxlamağa imkan verirdi. Bu isə Ermənistan üçün həm hərbi, həm də psixoloji baxımdan son dərəcə ciddi siqnal idi. Bununla da Azərbaycan Ordusu ilk dəfə düşmənin uzun illər toxunulmaz hesab etdiyi kommunikasiya xətlərinə birbaşa nəzarət imkanı qazanmış oldu.

Günnüt əməliyyatı nəticəsində Naxçıvan ölkəmizin ən güclü müdafiə qalalarından birinə çevrilib. Son illər muxtar respublikada yeni hərbi hissələrin yaradılması, müdafiə infrastrukturunun müasirləşdirilməsi, müasir silah və texnikaların alınması ordumuzun döyüş imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində Naxçıvan istiqamətində güclü və etibarlı müdafiə sistemi formalaşıb.

Ali Baş Komandan hələ 2018-ci ilin mayında Naxçıvana səfəri zamanı bildirmişdir ki, Azərbaycan Ordusu istənilən təxribatın qarşısını almağa və uğurlu əks-hücum əməliyyatı həyata keçirməyə qadirdir. Çox keçmədən Günnüt əməliyyatı da göstərdi ki, bu fikirlər sadəcə siyasi bəyanat deyil, real hərbi gücə söykənən qətiyyətli dövlət mövqeyi imiş.

Günnüt əməliyyatı Ermənistan cəmiyyətində də ciddi təşviş yaratdı. Çünki illərlə "məğlubedilməz ordu" mifinin arxasında gizlənən Ermənistan rəhbərliyi anladı ki, Azərbaycan əsgəri istənilən anda strateji təşəbbüsü qazanmaq gücünə malikdir. Ermənistan tərəfi əməliyyatın nəticələrini gizlətməyə çalışsa da, sərhəd kəndlərində yaşayan erməni əhalisi artıq ordumuzun nəzarətə götürdüyü yüksəklikləri görürdülər. Bu isə birmənalı olaraq düşmən ordusunda və cəmiyyətində ciddi mənəvi-psixoloji sarsıntı yaradırdı.

Bizdə isə əksinə, Günnüt əməliyyatı xalqımızın öz ordusuna olan inamını daha da gücləndirdi. Dövlət-ordu-xalq birliyinin real nəticəsi olan bu əməliyyat göstərdi ki, Azərbaycan öz torpaqlarını azad etməyə qadir olan güclü dövlətdir. Məhz buna görə də Günnüt əməliyyatı gələcək Zəfərin həm mənəvi, həm də hərbi başlanğıcı kimi tarixə həkk olundu.

İki il sonra başlayan Vətən müharibəsi zamanı həm də Günnütdə formalaşan döyüş təcrübəsi, peşəkar koordinasiya və qalibiyyət ruhu bütün cəbhəboyu özünü açıq göstərdi. 44 gün ərzində Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı azad edərək dünya hərb tarixinə qızıl hərflərlə yazılan möhtəşəm Zəfər qazandı. Füzulidən Şuşaya, Cəbrayıldan Kəlbəcərə qədər bütün istiqamətlərdə qazanılan hərbi uğurların təməlində aparılan məqsədyönlü hazırlıq, qətiyyətli siyasət və Günnüt kimi əməliyyatların yaratdığı inam dayanırdı.

Bu gün Günnüt əməliyyatından 8 il ötür. Lakin bu əməliyyatın yaratdığı qürur hissi və tarixi əhəmiyyəti dəyişmir. Çünki Günnüt yalnız hərbi uğur deyil, həm də Azərbaycan əsgərinin iradəsinin, dövlətin qüdrətinin və xalqın yenilməz ruhunun təcəssümüdür. O gün Naxçıvan dağlarında dalğalanan bayrağımız 2020-ci ilin möhtəşəm Zəfərinin ilk müjdələrindən biri idi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Bakı-Brüssel tərəfdaşlığının yeni prioritetləri

## Azərbaycan Avropanın enerji təhlükəsizliyində və logistik bağlantısında həlledici mövqeyə malikdir

**Azərbaycanın balanslaşdırılmış və milli maraqlara söykənən xarici siyasət kursu ölkəmizin beynəlxalq münasibətlər sistemindəki mövqeyini daha da möhkəmləndirir. Rəsmi Bakının mühüm tərəfdaşlarından olan Avropa İttifaqı ilə əlaqələrimiz son dönəmlərdə enerji və ticarət çərçivəsini aşaraq regional təhlükəsizlik və strateji etimad müstəvisinə keçib. Ölkəmiz Şərqlə Qərbi birləşdirən önəmli logistik mərkəz və Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatçısı kimi Brüsselin həlledici tərəfdaşı statusuna yüksəlib.**

Aİ və Azərbaycan arasında ikitərəfli münasibətlərin yeni və çoxtərəfli mərhələyə qədəm qoyması, gələcək əməkdaşlığın hüquqi-siyasi yol xəritəsinin müəyyən edilməsi məqsədilə növbəti yüksəksəviyyəli görüş Bakıda baş tutub. Mayın 20-də Azərbaycan və Avropa İttifaqı arasında Təhlükəsizlik Dialoqunun yeddinci iclası keçirilib. İclasa Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Avropa Xarici Fəaliyyət Xidmətinin Siyasi Məsələlər üzrə baş katibinin müavini Olof Skuq həmsədrlik ediblər. Tərəflər Azərbaycan-Aİ münasibətlərinin hazırkı vəziyyəti, qarşılıqlı maraq doğuran xarici və təhlükəsizlik siyasəti məsələləri ilə bağlı konstruktiv fikir mübadiləsi aparıblar. Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın və Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Azərbaycana səfərləri və Prezident İlham Əliyevlə görüşləri də daxil olmaqla yüksəksəviyyəli təmasların intensivləşməsini alqışlayıblar.



Son aylarda Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Aİ-nin ali nümayəndəsi Kaya Kallasın Azərbaycana səfərləri rəsmi Bakının Brüsselin xarici siyasət gündəmində nə dərəcədə prioritet yer tutduğunun bariz sübutudur. Avropanın yüksəkrütbəli rəsmilərinin Prezident İlham Əliyevlə birbaşa və intensiv dialoqu göstərir ki, Aİ Cənubi Qafqaz regionunda dayanıqlı sabitliyin və iqtisadi inkişafın məhz Azərbaycanla qurulan konstruktiv münasibətlərdən asılı olduğunu qəbul edir.

Görüş iştirakçıları yeni Tərəfdaşlıq Prioritetləri və yeni ikitərəfli saziş üzrə davam edən müzakirələrin vacibliyini vurğulayıblar, müntəzəm dialoqun davam etdirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar. Qeyd olunan yeni saziş üzrə müzakirələr tərəflər arasında gələcəyin yol xəritəsini müəyyənləşdirən strateji əhəmiyyətli prosesdir.

Bununla yanaşı, tərəflər görüş çərçivəsində bağlantı, enerji təhlükəsizliyi və Orta dəhliz də daxil olmaqla, regional və beynəlxalq məsələləri müzakirə ediblər. Aİ nümayəndələri Azərbaycanın regional bağlantı və enerji şaxələndirilməsi baxımından mühüm tərəfdaş kimi rolunu qeyd edib, iqtisadi cəhətdən səmərəli və davamlı əməkdaşlığın vacibliyini vurğulayıblar.

Azərbaycan zəngin karbohidrogen ehtiyatları və reallaşdırdığı irimiqyaslı layihələr sayəsində Avropa İttifaqının enerji təhlükəsizliyində strateji tərəfdaş rolunu oynayır. "Cənub qaz dəhlizi" vasitəsilə Xəzər qazının birbaşa Avropa bazarlarına çatdırılması qitənin resurs mənbələrini şaxələndirib. 2022-ci ildə Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen Bakıya səfəri çərçivəsində Azərbaycan ilə Aİ arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bu memorandum 2027-ci ilə qədər Azərbaycandan Aİ-yə qaz ixracını iki dəfə artırmağı və bərpaolunan enerji sahəsində əməkdaşlığı nəzərdə tutur. Hazırda Azərbaycan Avropa İttifaqının 10 üzvünə qaz ixrac edir. Son olaraq Almaniya və Avstriya da bu siyahıya qoşulub. Avropa İttifaqı Xəzər dənizi ilə Avropanı birləşdirəcək "yaşıl enerji" dəhlizi üzrə əməkdaşlığın dərinləşdirilməsinə də böyük maraq göstərir.

Şərqlə Qərbi birləşdirən Orta dəhlizin tam gücü ilə işləməsi də rəsmi Brüssel üçün strateji zərurətdir. Çünki bu marşrut qlobal gərginliklər fonunda Asiyadan Avropaya yüklərin alternativ, təhlükəsiz və daha qısa zaman kəsiyində çatdırılması üçün əvəzedilməz nəqliyyat arteriyasına çevrilir. Orta dəhlizin mərkəzi ünvanı olan Azərbaycanla tərəfdaşlıq Brüsselə regional bağlantı layihələrində üstünlük qazandırır.

Görüş zamanı tərəflər Azərbaycanla Ermənistan arasında sülh prosesi barəsində də danışıblar. Avropa İttifaqı Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunması yönündə dialoqun, praktiki əməkdaşlığın vacibliyini vurğulayıb. Eyni zamanda Azərbaycan və Ermənistan arasında təmasların intensivləşməsinə dəstək verməyə hazır olduğunu bəyan edib.

Tərəflər formatın genişləndirilərək Azərbaycan-Aİ Siyasi və Təhlükəsizlik Dialoqu adlandırılması barədə razılığa gəliblər. Bu, münasibətlərin daha geniş sahələri əhatə etdiyinin və strateji əhəmiyyətinin göstəricisidir. Xüsusilə indiki mürəkkəb geosiyasi şəraitdə tərəflərin təhlükəsizlik məsələlərini ayrıca və institusional formatda müzakirə etməsi ikitərəfli əlaqələrin dərinliyini göstərir. Azərbaycan bütün aktorlarla strateji əməkdaşlığı genişləndirərək çoxvektorlu xarici siyasət modelini daha da gücləndirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# "Azərenerji" ASC-nin sədri ilə Xorvatiya səfirinin görüşü olub

**"Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayevlə Xorvatiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Branko Zebiç arasında görüş keçirilib.**



Görüşdə iki ölkənin enerji qurumları arasında əməkdaşlıq münasibətləri ətrafında fikir mübadiləsi aparılıb. Xorvatiya şirkətlərinin Azərbaycanın enerji sistemində həyata keçirilən layihələrdə iştirakı məsələləri müzakirə olunub.

## İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu
### 2026-cı il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya
### *qəbul elan edir*

Sənəd qəbulu onlayn qaydada Elm və Təhsil Nazirliyinin **"portal.edu.az"** platforması vasitəsilə **19 may 2026-cı il tarixindən başlayaraq 8 iyun 2026-cı il saat 18:00-dək** həyata keçiriləcəkdir.

Namizədlər doktorantura və ya dissertanturaya qəbul üçün aşağıdakı sənədləri elektron qaydada portala daxil etməlidirlər:

- ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- iş stajı olanlar üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar. Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyənlər 2025-ci ilin iyun ayında *(İELTS, TOEFL, Cambridge English Qualifications, TestDaf, DELF, DALF, STANAG-a malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar)* "Xarici dil" fənnindən keçid balını toplayan şəxslər "Fəlsəfə" fənni üzrə imtahana buraxılırlar. "Fəlsəfə" fənni üzrə imtahanda "məqbul" qiymət almış şəxslər "İxtisas" fənni üzrə imtahana buraxılırlar. Fəlsəfə və ixtisas fənni üzrə imtahanlar sentyabr ayında keçiriləcəkdir.

Əlavə suallar yarandığı təqdirdə **www.esri.gov.az** saytından və ya İqtisadi Elmi Tədqiqat İnstitutunun Elmi katibliyindən məlumat almaq olar.

***Rəhbərlik***

# Rubio Kubanın ABŞ üçün təhlükə yaratdığını bildirir
## Havana isə ittihamları rədd edir

**Dövlət katibi Marko Rubio Kubanın ABŞ üçün "milli təhlükəsizlik təhdidi" yaratdığını və onunla sülh müqaviləsi bağlamaq ehtimalının "aşağı" olduğunu bildirib. Onun bu sözləri Vaşinqtonun 1996-cı ildə ABŞ vətəndaşlarının ölümünə səbəb olan iki təyyarənin vurulması ilə əlaqədar keçmiş Kuba Prezidenti Raul Kastronu ittiham etməsindən bir gün sonra səslənib.**







Rubio Vaşinqtonun "diplomatik həll yoluna" üstünlük verdiyini bildirib, lakin Prezident Donald Trampın ölkəsini hər hansı bir təhdiddən qorumaq hüququ və məsuliyyəti olduğunu vurğulayıb.

Öz növbəsində Kubanın xarici işlər naziri Bruno Rodriges Rubionu "yalan danışmaqda" günahlandırıb və adanın heç vaxt ABŞ üçün təhlükə yaratmadığını bildirib.

Cümə günü jurnalistlərə açıqlamasında Rubio bildirib ki, Kuba ilə münasibətlərdə diplomatiya üstünlük verilən həll yolu olaraq qalır, lakin o bunu əlavə edib: "Düzünü desəm, hazırda kimdən söhbət getdiyini nəzərə alsaq, bunun ehtimalı azdır".

O, həmçinin Kubanı "bütün regionda terrorizmin aparıcı sponsorlarından biri" olmaqda ittiham edib. Rodriges isə bu ittihamı "X" paylaşımında cəfəngiyyat adlandırıb.

Kubanın xarici işlər naziri Rubionu "hərbi təcavüzə təhrik" cəhdinə görə tənqid edib və ABŞ hökumətini ölkəsinə qarşı "amansız və sistematik" hücumlarda günahlandırıb.

Kuba ABŞ-nin neft blokadası ilə daha da şiddətlənən yanacaq böhranından əziyyət çəkir və Tramp administrasiyasının razılaşma əldə etməsi tələbinə görə təzyiq altındadır. Son bir neçə aydır ki, vətəndaşlar uzunmüddətli elektrik kəsintiləri və qida çatışmazlığı yaşayırlar.

Tramp dəfələrlə Kubaya təzyiq göstərməyə çalışıb və onun kommunist rejimini devirmək barədə açıq şəkildə müzakirə aparıb.

ABŞ dövlət katibi həmçinin Kuba maliyyə konqlomeratı GAESA-nın rəhbərinin bacısı Adis Lastres Moreranın həbs olunduğunu elan edib. Rubio "X"də yazıb: "Morera daşınmaz əmlak idarə edir və eyni zamanda Havanadakı kommunist rejiminə kömək edə-edə Floridada yaşayırdı - mən onun daimi yaşayış statusunu ləğv edənə qədər… Məmnuniyyətlə elan edirəm ki, o, artıq həbs olunub və hazırda ABŞ İmmiqrasiya və Gömrük Xidmətinin nəzarətindədir".

O qeyd edib ki, GAESA Kuba ordusu tərəfindən idarə olunan maliyyə konqlomeratıdır. Onun icraçı prezidenti Ania Guilhermina Lastres Morera briqada generalı rütbəsinə malikdir və Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvüdür.

Hələ 2020-ci ildə ABŞ Maliyyə Nazirliyi Kubanın keçmiş lideri Raul Kastronun kürəkəni və GAESA-nın rəhbəri olan general Luis Alberto Rodriges Lopes-Kallejaya sanksiyalar tətbiq edib.

Konsorsiuma təxminən 50 hotel, şəbəkə mağazası və tikinti şirkəti daxildir. GAESA həmçinin Havananın qərbində yerləşən iri Mariel limanına nəzarət edir.

Daha əvvəl Oval Ofisdə jurnalistlərə verdiyi açıqlamada Tramp Kubanın "uğursuz bir ölkə" olduğunu və administrasiyasının onlara "humanitar əsasda" kömək etməyə çalışdığını söyləyib. O, kubaəsilli amerikalıların "öz ölkələrinə qayıtmaq" və Kubanın uğur qazanmasına kömək etmək istədiklərini qeyd edib və deyib: "Digər prezidentlər 50 və ya 60 ildir ki, bu məsələni araşdırıblar və bununla bağlı nəsə etmək istəyiblər, görünür, bunu edən mən olacağam, ona görə də bunu məmnunluqla edəcəyəm".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
WUF13 COP29-dan sonra iştirakçı sayına görə ikinci mühüm qlobal tədbirdir
Prezident İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib
Ortaq strategiya və baxış bucağı
Azərbaycan Cənubi Qafqazın əsas siyasi və iqtisadi güc mərkəzidir
Prezident İlham Əliyevlə Fransa Prezidenti arasında telefon danışığı olub
WUF13 Azərbaycanın çoxşaxəli inkişaf modelinin uğurlu təqdimatıdır
Şərq ruhlu müasirlik: Mehriban xanım Əliyevanın şəhərsalma missiyası
Şükürbəyli kəndinin sakinlərinin sayı 1000 nəfəri ötdü
ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU WUF13 WORLD URBAN FORUM
azerbaijan-news.az

# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*




# Bilmək istəyirəm

*- Obyekt kişinin adınadır və şəxs bir ay əvvəl vəfat edib. Mərhumun birinci nikahından 2, ikinci nikahından isə 1 övladı var. Birinci həyat yoldaşı boşandıqdan müəyyən vaxt sonra vəfat edib. Obyekt ikinci nikah dövründə alınıb. İndi ikinci həyat yoldaşı obyekti tam şəkildə öz adına keçirtmək istəyirsə, birinci nikahdan olan övladlarının imtina ərizəsi tələb olunacaqmı?*

***Tamella XƏLİLOVA, Bakı şəhəri***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, bu halda burada həm vərəsəlik hüququ, həm də ailə qanunvericiliyinin prinsipləri kəsişir. Qeyd edək ki, mülkiyyətin birbaşa tam şəkildə həyat yoldaşının adına keçirilməsi sadə proses deyil.

Obyekt ikinci nikah dövründə alındığı üçün Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, bu əmlak ər-arvadın ümumi birgə mülkiyyəti hesab olunur (əgər ər-arvad arasında fərqli şərtləri nəzərdə tutan nikah müqaviləsi yoxdursa, yaxud birgə mülkiyyət hesab olunmama barədə məhkəmə qərarı mövcuddursa). Bu isə o deməkdir ki, obyektin bir hissəsi (1/2 və yaxud digər hissə) artıq sağ qalan yoldaşına məxsusdur. Digər hissə isə, yəni kişiyə aid hissə kişinin (miras qoyanın) miras payı (vərəsəlik kütləsi) hesab olunur.

Ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1159.1.1-1159.1.5-ci maddələrinin tələblərinə görə qanun üzrə vərəsəlik zamanı birinci növbədə - ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) bərabər pay hüquqlu vərəsələr sayılırlar. Övladlığa götürülən və onun övladları övladlığa götürənin vərəsələri və ya qohumları kimi övladlığa götürənin uşaqlarına və onların övladlarına bərabər tutulurlar. Həmçinin Mülki Məcəllənin 1193-cü maddəsinə əsasən, vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır.

Beləliklə, kişinin (miras qoyanın) həm ikinci arvadı, həm də birinci nikahından olan uşaqları, həm də ikinci nikahından doğulan uşağı onun qanun üzrə birinci dərəcəli vərəsələridir. Burada nəzərə almaq lazımdır ki, kişinin (miras qoyanın) valideynləri sağdırlarsa, o zaman onlar da qanun üzrə birinci dərəcəli vərəsə hesab olunurlar.

Qeyd olunan şəxslər kişinin (miras qoyanın) birinci dərəcəli vərəsələri olduğu üçün onların miras əmlakdan (obyektdən) pay hüquqları vardır. Əgər kişi (miras qoyan) obyektlə bağlı vəsiyyətnamə qoymuşsa və miras əmlak üzrə vərəsəlik üzrə vəsiyyətnamə münasibətləri yaranmışsa o zaman qeyd olunan şəxslərin (uşaqların, valideynlərin və arvadın) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq, mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir.

Mülki Məcəllənin 1202-ci maddəsinə əsasən, məcburi pay almaq hüququ olan vərəsə onu qəbul etməkdən imtina edə bilər, lakin bu imtina digər vərəsələrin məcburi payının artmasına səbəb olmur. Onun payı vəsiyyət üzrə vərəsələrə keçir. Məcburi paydan imtina olunması mirasdan imtina olunması üçün müəyyənləşdirilmiş vaxt ərzində həyata keçirilməlidir.

Həmçinin Mülki Məcəllənin 1261-ci maddəsi ilə vərəsə mirası qəbul etməkdən qanun üzrə və ya vəsiyyət üzrə vərəsələr sırasından başqa şəxslərin xeyrinə imtina edə bilər. Ləyaqətsiz vərəsə sayılmış və ya vəsiyyətnamənin birbaşa göstərişi ilə vərəsəlik hüququndan məhrum edilmiş şəxsin xeyrinə mirasdan imtina yolverilməzdir. Bu cür imtina barəsində digər vərəsələr məhkəməyə şikayət verə bilərlər.

Obyektin (miras əmlakın) adına keçirilməsi ilə bağlı razılığın alınması məsələsinə gəlincə, miras əmlakın ikinci həyat yoldaşının adına keçirilməsi üçün mütləq şəkildə miras əmlak üzrə digər vərəsələrin razılığı tələb olunur. Bu razılıq notarial qaydada miras paydan qadının xeyrinə imtina etmə kimi rəsmiləşdirilməlidir.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Bəzi yerlərdə yağış yağacaq

**Azərbaycanda mayın 23-nə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 15-19, gündüz 22-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 14-17, gündüz 23-28, dağlarda gecə 3-8, gündüz 12-17, bəzi yerlərdə 20-23 dərəcə isti olacaq.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu (indiki Bakı Slavyan Universiteti) tərəfindən Mehriban Salman qızı Məmmədovanın adına verilmiş 33293 qeydiyyatlı, AB-I 039736 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

"Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu" PHŞ-nin kollektivi İdarə Heyətinin sədri Elbrus Paşayevə əzizi

**ALMAS HACIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3816
Sifariş 655

Qiyməti 60 qəpik